Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

69-cu cild

7 may 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN XV SESSİYASI İCLASININ

# PROTOKOLU № 167

*Milli Məclisin iclas salonu.*
*7 may 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 103 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 99 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

2. "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında”, “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Veteranlar haqqında”, “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Peşə təhsili haqqında” və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

7. “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbay-

can Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, “Dövlət rüsumu haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 960-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları”nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və “Dövlət rüsumu haqqında” Azərbaycan Respubli-

kasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

15. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

16. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

17. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

18. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Soltan Məmmədov, Musa Qasımlı, Zahid Oruc, Vüqar Bayramov, Sahib Alıyev, Kamal Cəfərov, Etibar Əliyev, Qüdrət Həsənquliyev, Azay Quliyev, Tahir Rzayev, Fazil Mustafa

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.20 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |

| | |
|---|---|
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**1. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Tahir Mirkişili, Sadiq Qurbanov, Fazil Mustafa, Sabir Rüstəmxanlı, Tahir Rzayev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**2. “Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında”, “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” və “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov, Fazil Mustafa, Əli Hüseynli, Qüdrət Həsənquliyev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**3. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəxtiyar Əliyev, Əziz Ələkbərov, Zahid Oruc, Jalə Əliyeva, Rəşad Mahmudov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**4. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi**

**haqqında", "Peşə təhsili haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**5. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**6. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Zahid Oruc, Ziyafət Əsgərov, Jalə Əliyeva, Əhliman Əmiraslanov, Musa Quliyev, Siyavuş Novruzov, Aydın Mirzəzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**7. “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Vüqar Bayramov, Fazil Mustafa, Bəhruz Məhərrəmov, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 2 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**8. “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sabir Rüstəmxanlı

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**9. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Tahir Rzayev

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

| | |
|---|---|
| **Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Mahir Abbaszadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**11. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Ziyafət Əsgərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**13. Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 960-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar İskəndərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**14. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azər-**

**baycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Jalə Əliyeva, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
| Lehinə | 92 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**15. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Azay Quliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 99 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**16. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**17. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elnur Allahverdiyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**18. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Aydın Hüseynov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*7 may 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük hamınızı, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 99 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar! Bizim iclasımız əlamətdar tarixi bir hadisə ərəfəsində keçirilir. Bildiyiniz kimi, üç gün sonra, mayın 10-da müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin doğum günü qeyd ediləcək.

Heydər Əliyev ən yüksək dövlət vəzifələrində çalışdığı 30 ildən artıq bir müddətdə Ümummilli Lider missiyasını iki dəfə öhdəsinə götürmüşdür. Hər ikisində də zamanın

çağırışlarına yaradıcı münasibət bildirməklə və düzgün qərarlar qəbul etməklə insanların ona bəslədiyi ümidləri doğrultmuşdur.

Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təməlini yaratmış, daha sonra isə bu təməl üzərində qurulan müstəqil dövləti qoruyub saxlamış və davamlı inkişaf yoluna çıxarmışdır. Bununla da o, böyük tarixi şəxsiyyətlərimizin dövlətçilik ənənələrini layiqincə davam etdirmiş və daha da zənginləşdirmişdir.

Hörmətli deputatlar! Heydər Əliyev dünya miqyaslı siyasi və dövlət xadimi idi. Onu dünyanın ən böyük siyasətçiləri və dövlət adamları ilə müqayisə etmək olar. Ulu Öndər mənsub olduğu xalqı yeni minilliyə, qloballaşma əsrinə hazırlayıb çatdıran bir liderdir.

Hörmətli deputatlar! Ümummilli Liderin başladığı möhtəşəm işlər Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Son 21 il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olmuşdur. Ölkə həyatının bütün sahələrində böyük uğurlar, misilsiz və qürurverici qələbələr əldə edilmişdir. Azərbaycanın zəngin iqtisadi, siyasi və hərbi potensialı yaradılmışdır. Bu isə xalqımızın və dövlətimizin müqəddəratı ilə bağlı olan ən mühüm problemi həll etməyə imkan vermişdir.

Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharəti, Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzmi və rəşadəti 44 günlük Vətən müharibəsində tarixi qələbəni təmin etmişdir. Ötən ilin sentyabr ayında həyata keçirilmiş birgünlük antiterror tədbirləri isə Azərbaycanın suverenliyini onun bütün ərazisində bərpa etməyə şərait yaratmışdır. Bu böyük uğur Vətən müharibəsində əldə edilmiş Zəfərin məntiqi davamı və yekunu olmuşdur.

30 ilə yaxın Ermənistanın işğalı altında qalan Azərbaycan torpaqlarının azad edilməsi ilə Ümummilli Liderin ən böyük arzusu həyata keçmiş, onun başladığı tarixi missiyanın önəmli bir istiqaməti layiqincə sona çatdırılmışdır.

Hörmətli deputatlar! Biz bir məqamı da həmişə qürurla vurğulayırıq ki, 1993-cü ilin iyununda Heydər Əliyev böyük siyasətə qayıdışa bu binada başlamış, dörd aya yaxın Azərbaycan parlamentinin sədri vəzifəsində çalışmışdır. Ulu Öndərin sayəsində yeni inkişaf səviyyəsinə yüksəlmiş parlamentarizm ənənələri bu gün dövlət başçısının qayğısı və Milli Məclis deputatlarının birgə səyləri ilə daha da inkişaf etdirilir.

Hörmətli həmkarlar! Bu gün sizin diqqətinizə çatdırmaq istədiyim digər bir məsələ də Ulu Öndərin adı ilə bağlıdır. Mayın 10-da Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 20 ili tamam olur. Fondun yaradılması Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, Azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gəlmişdir.

Heydər Əliyev öz həyatının mənasını xalqa xidmət etməkdə, xalq yolunda hər bir çətinliyə hazır olmaqda görürdü. Onun adını daşıyan fond da öz fəaliyyətində bu ali idealları rəhbər tutur.

Hörmətli həmkarlar! Bu gün milyonların sevgisini qazanmış Heydər Əliyev Fondunun nailiyyətlərinin təməlində fondun Prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı, Azərbaycan Mədəniyyəti Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna təşkilatçılıq qabiliyyəti və rəhbərlik məharəti,

yüksək səriştəsi və peşəkarlığı, böyük zəhməti və fədakarlığı dayanır. Onun hər bir məsələyə yaradıcı münasibəti, insanları vahid məqsəd naminə səfərbər etmək bacarığı, humanizmi və səmimiyyəti fondun hamıya yaxşı tanış olan simasını müəyyən edir.

Hörmətli həmkarlar! Fəaliyyətə başladığı ilk gündən Heydər Əliyev Fondu həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda sosial rifahın, mədəni inkişafın dəstəklənməsinə, humanizm, mərhəmət və birlik ideallarının reallaşmasına yönələn çoxsaylı təşəbbüslərin ön sırasında olmuşdur. Fondun fəaliyyətinin ən mühüm istiqamətləri elmin, təhsilin, mədəniyyətin, incəsənətin, səhiyyənin, idmanın inkişafına, sosial müdafiənin gücləndirilməsinə, ekoloji mühitin yaxşılaşdırılmasına, informasiya-kommunikasiya texnologiyalarının inkişafına dair proqram və layihələrin gerçəkləşdirilməsi ilə bağlıdır.

Milli-mənəvi dəyərlərə, humanizm prinsiplərinə sadiq olan gənc nəslin formalaşdırılması, gender bərabərliyinin təmin edilməsi, sivilizasiyalararası dialoqa rəvac verilməsi, Qarabağda işğal dövründə talan edilmiş abidələrimizin bərpası, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması da fondun fəaliyyətində önəmli yer tutur.

Hörmətli deputatlar, yeri gəlmişkən, Azərbaycan barəsində doğru-düzgün məlumatların yayılması və dövlətimizin milli maraqlarının qorunması istiqamətində ən uğurlu layihələrdən biri Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasıdır. Bir çox dünya ölkələrini əhatə edən bu kampaniya Xocalı həqiqətlərinin dünyada yayılmasına, cinayətkarların beynəlxalq ifşasına yönələn tədbirlərin vahid konsepsiyası əsasında sistemli şəkildə

həyata keçirilmişdir.

Bu sahədə görülən məqsədyönlü tədbirlərin nəticəsidir ki, Xocalı soyqırımı ətrafında qurulmuş informasiya blokadası yarılmış, İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqı, bir çox ölkələrin parlamentləri Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğunu təsdiq etmiş və bir sıra ölkələrin parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləmişlər.

Hörmətli deputatlar! Heydər Əliyev Fondunun fəaliyyətinin ana xətlərindən biri olan xeyriyyəçilik missiyası xüsusi qeyd edilməlidir. Dara düşən, yardıma ehtiyacı olan insanların Heydər Əliyev Fonduna pənah aparması cəmiyyətin fond rəhbərliyinə dərin inamından irəli gəlir. Minlərcə insanın sağlamlığının bərpa edilməsi, ağır xəstəliklərə düçar olan uşaqların, sənət adamlarının, ziyalıların xarici ölkələrdə müalicə etdirilməsi xalqımızın ən yüksək milli-mənəvi dəyərlərindən olan humanizmin və xeyirxahlığın parlaq ifadəsidir.

Hörmətli deputatlar! Heydər Əliyev Fondu İkinci Qarabağ müharibəsində qələbəmizə mühüm töhfələr vermişdir. Xalqın dövlət başçısı ətrafında yumruq kimi birləşməyə çağırılması, cəbhədə işğalçılara qarşı döyüşən, şəhid olan və yaralanan əsgər və zabit valideynlərinə hərtərəfli dəstək göstərilməsi tarixi Zəfərimizi təmin edən amillərdən idi.

Bu gün Heydər Əliyev Fondu işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesində yaxından iştirak edir, Qarabağ müharibəsi əlillərinə, şəhid ailələrinə, veteranlara böyük diqqət və qayğı göstərir. Müharibədə yaralanan qazilərimiz yüksək texnologiyalı protezlərlə təmin olunur,

zərurət yarandıqda yaralı hərbçilərimizin xaricdə müalicəsi təşkil edilir, onların sosial durumunun yaxşılaşmasına kömək göstərilir.

Hörmətli həmkarlar! Heydər Əliyev Fondunun beynəlxalq fəaliyyəti dünyanın müxtəlif bölgələrini əhatə edir. Bir çox ölkələrdə fondun nümayəndəlikləri fəaliyyət göstərir. Heydər Əliyev Fondu xarici ölkələrdə təbii fəlakət nəticələrinin aradan qaldırılmasına yardım göstərmiş, məktəblərin inşasını, yenidən qurulmasını və əsaslı təmirini, dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrinin bərpasını təmin etmişdir. Bu gün Azərbaycanın yumşaq gücünü təcəssüm etdirən Heydər Əliyev Fondu geniş bir coğrafiyada humanizm və mərhəmətin simvolu kimi qəbul olunur.

Hörmətli həmkarlar! Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev Heydər Əliyev Fondunun fəaliyyətini çox yüksək qiymətləndirmişdir. Mən sizə möhtərəm Prezidentin bu sözlərini xatırlatmaq istərdim: “Fondun xətti ilə aparılan işlər, görülən tədbirlər, irəli sürülmüş təşəbbüslər göz qabağındadır.

... Bu fond sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər.

Fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən “xoş niyyət” deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük”.

Hörmətli həmkarlar! Əminliklə söyləmək olar ki, Heydər Əliyev Fondu başladığı bütün layihələri və proqramları eyni əzmlə davam etdirəcək və bununla birlikdə yeni təşəbbüslər irəli sürəcək, özünün böyük potensialından xalqın və dövlətin maraqları naminə səmərəli surətdə istifadə edəcəkdir.

Hörmətli həmkarlar! Mən təklif edirəm, Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 20 illiyi münasibəti ilə fondun prezidenti Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubu göndərək. Şərəfli və nəcib missiyanın həyata keçirilməsində Mehriban xanım Əliyevaya və fondun kollektivinə yeni böyük uğurlar arzulayırıq. (*Alqışlar.*)

Çox sağ olun.

Hörmətli deputatlar, Heydər Əliyev Fondunun yubileyi münasibəti ilə həmkarımız hörmətli Soltan Məmmədov təqdimat hazırlamışdır. Mən sizi həmin təqdimatla tanış olmağa dəvət edirəm. Soltan müəllim, buyurun.

**S.Məmmədov.** Çox hörmətli Sahibə xanım, dəyərli həmkarlar və media nümayəndələri. Heydər Əliyev Fondu görkəmli dövlət xadimi, müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin zəngin irsinin, milli dövlətçilik ideyalarının təşviqi, gələcək nəsillərə çatdırılması, xalqımızın milli-mənəvi dəyərlərinin, ənənələrinin təbliği, ölkəmizin sosial-iqtisadi inkişafına töhfə vermək məqsədi ilə yaradılmışdır. Fondun çoxşaxəli fəaliyyətini ümumbəşəri dəyərlərə, milli, dini və mədəni irsə dərin ehtiramın ifadəsi kimi bir neçə mühüm aspektdən qiymətləndirmək mümkündür. Sosial-humanitar aspekt təhsil, səhiyyə, ekologiya, idman və ehtiyacı olan insanlara qayğı kimi cəmiyyət həyatının çox vacib, fundamental istiqamətlərini əhatə edir. 2005-ci ildən həyata keçirilən “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi çərçivəsində 100 mindən çox şagirdin təhsil aldığı 500-ə yaxın məktəb binası inşa edilib yenidən qurulmuşdur. Sonradan proqram dövlət tərəfindən dəstəklənərək 3 mindən çox məktəb təmir olunmuş və ya yenidən qurulmuşdur. Təhsilin keyfiyyətinin artırılmasına xidmət edən “Təhsilə dəstək” layihəsi

artıq neçə illərdir ki, uğurla davam edir.

Fondun həyata keçirdiyi proqramlar çərçivəsində uşaq bağçaları üçün yeni binalar tikilib, 40-dək uşaq müəssisəsi əsaslı şəkildə təmir edilib. Fondun səhiyyə sahəsində proqram və layihələri çərçivəsində Bakıda Psixonevroloji Uşaq Mərkəzi, Talassemiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Autizm spektr pozuntulu uşaqlar üçün Bərpa Mərkəzi və bir sıra digər tibb müəssisələri inşa olunub.

2004-cü ildən başlayaraq “Diabetli uşaqlara ən yüksək qayğı” layihəsi çərçivəsində 14 yaşınadək pasiyentlər hər il dərman preparatları ilə təmin edilib. 2015–2020-ci illərdə həyata keçirilmiş “Koxlear implantasiya” proqramından 200-dən çox şəxs faydalanıb. Görmə məhdudiyyətli uşaqlar üçün respublika internat məktəbində müvafiq mərkəz istifadəyə verilib. Naxçıvan, Gəncə və Yevlaxda regional informasiya mərkəzləri yaradılıb.

Heydər Əliyev Fondu pandemiya ilə mübarizəyə də önəmli töhfələr verib. Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargahın işinə dəstək olaraq 2020-ci ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən müxtəlif ölkələrdən gətirilən tibbi ləvazimat müvafiq tibb müəssisələrinə təqdim olunub.

Fond təhsildə fərqlənən, valideyn himayəsindən məhrum olan uşaqları, şəhid ailələrini, müharibə veteranlarını və müharibə əlillərini hər zaman diqqət mərkəzində saxlamağa çalışır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən 2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərdən ibarət bir qrup hərbçi yüksək texnologiyalı protezlərlə təmin olunub.

Uşaq və yeniyetmələrdə idmana marağın artırılması məqsədi ilə bir çox təhsil müəssisələrində idman zalları, futbol meydançaları, yeni salınan parklarda mini stadionlar, idman qurğuları ilə təchiz olunmuş sahələr yaradılıb. Olimpiya və Paralimpiya oyunlarında medal qazanmış idmançılar Heydər Əliyev Fondunun təqaüdlərinə və diplomlarına layiq görülüblər. 2016-cı ildən Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Küləyə qalib gəl" şüarı altında keçirilən "Bakı marafonu"nda minlərcə insan iştirak edir.

Heydər Əliyev Fondu ekoloji tarazlığın qorunmasına, nəsli kəsilməkdə olan heyvan və bitki növlərinin mühafizəsinə, əhali arasında ekoloji təbliğatın gücləndirilməsinə də xüsusi diqqət yetirir.

Heydər Əliyev Fondunun fəaliyyətinin ikinci mühüm aspekti mədəni irsimizin qorunmasını, tanıdılmasını və multikultural dəyərlərimizin təbliğini əhatə edir. Ötən müddətdə fondun təşəbbüsü ilə Beynəlxalq Muğam Mərkəzi, Müasir İncəsənət Muzeyi, Azərbaycan Xalça Muzeyi və bir sıra digər mədəniyyət obyektləri inşa olunub. Dünyanın bir sıra ölkələrində Azərbaycan mədəniyyət mərkəzləri yaradılıb. Beynəlxalq Muğam Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı və digər beynəlxalq festivallar mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə öz töhfəsini verir.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Şuşa şəhəri erməni işğalından azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən Vaqif Poeziya Günləri və "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçirilir.

Heydər Əliyev Fondunun təşkil etdiyi ədəbiyyat və incəsənət festivalları artıq ölkə hüdudlarını aşaraq

beynəlxalq ictimaiyyətin diqqətini cəlb edir. Buna misal olaraq Nəsimi poeziya, incəsənət və mənəviyyat festivalını, Beynəlxalq Kulinariya Festivalını qeyd etmək olar.

Müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun dərinləşməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsini həyata keçirir. Fond Almaniyada Berlin qəsrinin, Bolqarıstanda "Trapezitsa" muzeyinin, Vatikanda katakombaların, Romanın Kapitolini muzeyinin və digər tarixi abidələrin bərpasına və təmirinə də öz töhfəsini verib. Fond tərəfindən Versal sarayının parkı, Strasburq Kafedral kilsəsi və Fransada 20-dək kilsənin bərpasına dəstək göstərilib, Milan, Antalya, Astana, Dubay və Dohada keçirilən beynəlxalq sərgilərdə Azərbaycanın milli pavilyonları uğurla təşkil edilib.

O cümlədən Bakıda və regionlarda yerləşən bir sıra məscidlərdə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Qəbələ şəhərində yeni məscid inşa olunub, Nic qəsəbəsində Cotari Alban-Udi kilsəsi, Müqəddəs Məryəm Ana Alban kilsəsi, Şəki Xan məscidi kompleksi bərpa edilib, Şamaxıda Pirsaat Baba ziyarətgah-məscid kompleksi yenidən qurulub. Bakıdakı Müqəddəs Məryəmin Miladı kilsəsində təmir-bərpa işləri aparılıb, yəhudi uşaqları üçün "Xabad-Or-Avner" Təhsil Mərkəzi inşa edilib.

Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətinin digər mühüm bir aspekti həyata keçirilən layihələrin tarixi-ideoloji və siyasi məzmunu ilə bağlıdır. XX əsrin ən dəhşətli soyqırımı hadisələrindən biri olan Xocalı faciəsi, Ermənistanın ölkəmizə vurduğu ekoloji, sosial-psixoloji, iqtisadi və maddi-mənəvi zərər fondun daim diqqət mərkəzində saxladığı mövzulardır.

İşğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən

bərpa-quruculuq işlərində də fond fəal iştirak edir. Ötən müddət ərzində fond artıq bir sıra mədəniyyət abidələrinin bərpasını başa çatdırıb, Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Mehmandarovların malikanə kompleksinin, Saatlı məscidinin, İncəsənət qalereyasının, Xalça muzeyinin, Yuxarı Gövhərağa məscidinin, Xan qızı bulağının və digər tarixi binaların, abidələrin bərpasına dəstək verilib. Aşağı Gövhərağa məscidi, Mamayı məscidi, Üzeyir Hacıbəylinin ev-muzeyi, yeni Şuşa məscidi, Ağdam Cümə məscidi, Xocavənd rayonunun Susanlıq kəndindəki kilsənin bərpası istiqamətində də işlər davam etdirilir.

Qlobal əhəmiyyətli aktual mövzulara dair beynəlxalq tədbirlər təşkil edən Heydər Əliyev Fondu ICESCO, UNESCO, BMT-nin İnkişaf Proqramı, ÜST, UNICEF və digər beynəlxalq təşkilatlarla birgə əməkdaşlıq çərçivəsində mədəniyyət, səhiyyə, uşaqların müdafiəsi istiqamətində layihələr reallaşdırıb. Fondun gənclər, təhsil, səhiyyə və mədəniyyət sahələrində Şanxay Əməkdaşlıq Təşkilatı və Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyası ilə birgə həyata keçirdiyi layihələr Azərbaycan–Çin münasibətlərinin inkişafına öz töhfəsini verib.

Hörmətli Sahibə xanım, icazə verin, Heydər Əliyev Fondunun yaradılmasının 20 illiyinin parlament platformasında qeyd edilməsinə görə Sizə öz təşəkkürümü bildirim.

Heydər Əliyev Fondunun milli-mənəvi irsimizin təbliği, humanist, insanpərvər dəyərlərin, sivilizasiyalararası dialoqun təşviqi istiqamətində həyata keçirdiyi tədbirlərin əsas qayəsi Ulu Öndərin irsini yaşatmaqdır. Ümummilli Lider Heydər Əliyevin mükəmməl ideyaları və müdrik tövsiyələri fondun çoxşaxəli fəaliyyətinin əsas ideoloji məzmununu təşkil edir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Soltan müəllim, təqdimata görə də, çıxışınıza görə də çox sağ olun.

Hörmətli həmkarlar, indi biz gündəliyin məsələlərinə səs verməliyik. Xahiş edirəm, gündəliyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.20 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, 30 dəqiqəmiz var. Gündəmdə, ya da gündəlikdə olan məsələlərlə bağlı 10 nəfər çıxış edə bilər. Buyurun, yazılın. Sonuncu çıxış edən Fazil Mustafa olacaq. Musa Qasımlı. Buyurun, Musa müəllim.

**M.Qasımlı**. Hörmətli Sahibə xanım, dəyərli həmkarlar. Hörmətli Sahibə xanımın giriş nitqində söylədiklərinə tamamilə qatılıram. Bir neçə gündən sonra Ulu Öndər Heydər Əliyevin 101-ci doğum günü qeyd ediləcək. Heydər Əliyev deyəndə ilk növbədə müasir Azərbaycan dövlətinin memarı və qurucusu göz önünə gəlir. Böyük dövlət və siyasət adamının fəaliyyətini bir neçə mərhələdə qiymətləndirmək olar: Azərbaycan müstəqil olmadığı Sovet dövründə, 1969–1982-ci illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olaraq, 1982–1987-ci illərdə dünyanın quru ərazisinin altıda bir hissəsini tutan SSRİ-nin rəhbərlərindən biri olaraq, Naxçıvan dövrü və bir də müstəqillik dövrü.

Mən iki məsələ üzərində xüsusi dayanmaq istəyirəm. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin ilk iclasında "Sovet Sosialist" ifadələri çıxarıldı. Elə bir dövrdə ki, Sovet İttifaqı var idi, Kommunist Partiyası var idi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul edildi. Bu, sadəcə, bir bayrağın qəbul edilməsi deyildi. Sovet dövləti, Kommunist Partiyası Azərbaycanın müstəqilliyinin əleyhinə idi. Naxçıvan Azərbaycanın müstəqilliyinin təməlinin atıldığı bir yer oldu və onun memarı da Ulu Öndər Heydər Əliyev idi.

Sonrakı dövrlərdə Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi göydəndüşmə olmadı. Bakıda qərarlar qəbul edildi. 1993-cü ildə Azərbaycanda ümumi böhran olanda Ulu Öndər Heydər Əliyev Azərbaycanı separatçılıqla parçalanmaqdan, xalqı vətəndaş müharibəsindən, müstəqil dövləti itirilmək təhlükəsindən xilas etdi. Azərbaycanın gələcək inkişaf strategiyasını müəyyənləşdirdi, atəşkəsə nail oldu. Böyük bir strategiyanı sonradan cənab Prezidentimiz İlham Əliyev həyata keçirdi. Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixində ilk dəfə olaraq təbii sərvətimiz olan nefti milli sərvətə çevirdi.

Bundan sonra yüz illər, min illər keçəcək, Azərbaycan xalqını böyük, qüdrətli, dövlətini güclü görmək istəyənlər daim Heydər Əliyev irsinə müraciət edəcəklər və Ulu Öndər Heydər Əliyev də daim yaşayacaqdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, heç kim yazılmasın, 10 nəfər çıxış etməlidir. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Qələbəmizə qarşı BMT-dən başlayan sanksiya planları iflasa uğrayandan sonra indi Amerika Konqresində ölkəmizin seçilmiş adamlarına qarşı "cəza layihəsi" işə salınıb. Araşdırmalar göstərir ki, sənədi ilk dəfə ha-

zırlayan Konqresin Tom Lantos İnsan Hüquqları Komitəsi, habelə Tom Lantos Fondu eyni ilə 1992-ci ildə 907-ci düzəlişin təşəbbüskarları və müəllifləri olublar. Təsəvvür eləyirsinizmi, üstündən 32 il keçməsinə baxmayaraq, Lantoslar ailəsinin əli ilə dünya erməniçiliyi ölkəmizə qarşı siyasi şantaja əl atır. Argentinanın ən varlı adamı, aeroport maqnatı kimi tanınan Eduardo Ernekyanın sədrlik elədiyi Raul Volenberq adına İnsan Haqları İnstitutu da hörümçək toru kimi sanksiyaları təşviq edir.

Qlobal hüquq və ədalət strukturlarında mütəşəkkil dəstə beynəlxalq hüquq mafiyası kimi gecə-gündüz əleyhimizə işləyir. 1990-cı illərin 1 milyon məcburi köçkün, qaçqın, məğlub ölkəsi ilə müqayisədə indi bizi Zəfərimizə görə cəzalandırırlar. Əlləri çatsa, təkcə Vətən müharibəsinin qəhrəmanlarına qarşı deyil, bütün xüsusi təyinatlılarımıza, komandoslara, hər bir şəhidimizə, bir sözlə, bütün Azərbaycan Ordusuna qarşı hərbi hökmlər çıxararlar. Xalqımızın müqəddəs simvoluna çevrilən 44 rəqəmini ləkələmək üçün "44 Azərbaycan rəsmisi" ifadəsinin seçilməsi də sübut edir ki, 8 Noyabr Zəfəri təkcə bir ölkə üzərində qazanılmayıb. Dövlət elitasında parçalanma və daxili inamsızlıq yaratmaq üçün bir sıra mühüm nazirlərin, rəsmilərin adları siyahıda yoxdur. Əvəzində sənədin birinci variantından türkiyəli komandirlər Bəxtiyar Ersayın, Şərəf Önqayın, Göksəl Kahyanın adlarının sonradan çıxarılması Türkiyəni Azərbaycanla birləşdirməkdən çəkinməyin nəticəsidir.

Amerika Konqresi və Fransa Senatı ilə müqayisədə Ermənistan parlamenti sülh göyərçinini xatırladır. "Gürcü arzusu"nun lideri İvanişvili haqlı olaraq onları "qlobal müharibə partiyası" adlandırır. Bizdən xarici siyasət kursumuzu dəyişməyi, Ağ Evin və Brüsselin təsir agentlərinə

çevirdikləri digər hökumət təşkilatlarına rəsmi hakimiyyət verməyi tələb edirlər.

Bu il aprelin 24-də Cozef Baydenin “artsax” kəlməsini işlətməməsi və Xankəndidə “etnik təmizləmə” iddiasına sıfır reaksiyası sənədin heç bir hüquqi əsası olmayan erməni aktı olduğunu göstərir. Siz riyakarlığa baxın ki, Menendesin korrupsiya əməllərinin ifşasından sonra indi konqresmen Henri Kuelyarı guya Azərbaycandan rüşvət almaqda ittiham eləyərək ölkəmizin dostlarını linç etməyə qalxıblar. Ona görə Azərbaycan dövlətinin sanksiyalara cavabı Böyük Qayıdışı gücləndirmək, delimitasiyanı addım-addım irəliyə aparmaq, regionda sülhü qazanmaq, qardaş Türkiyə ilə hərbi-siyasi ittifaqı möhkəmləndirmək, region dövlətləri ilə qarşıdurmaya getməmək, nəhayət, torpaqlarımızın işğalına dəstək verən konqresmenləri – dövlət katibi Ceyms Beykerdən Göyçə dağlarına qədər gəlib çıxan Foq Rasmussenədək hamısını qara siyahıda dünyaya sülhün düşmənləri kimi göstərmək olmalıdır.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, Sizə çox ətraflı çıxışınıza görə təşəkkür edirəm. Mən Ümummilli Liderin anadan olmasının 101-ci ildönümü ilə bağlı məhz Ulu Öndərin yenidən hakimiyyətə qayıtmasının Azərbaycan iqtisadiyyatına təsirlərinə və eyni zamanda, daha çox iqtisadi-sosial məsələlərə diqqəti cəlb etmək istərdim. Təbii ki, bu gün əldə etdiyimiz iqtisadi uğurun, eyni zamanda, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa edilməsinin banisi məhz Ümummilli Liderdir. Məhz onun hakimiyyətə qayıtması Azərbaycan iqtisadiyyatının bərpa olunmasına, həmin illərdə müşahidə edilən tənəzzülün çox qısa zamanda aradan qalxmasına və bunun iqtisadi inkişafla

əvəz olunmasına gətirib çıxardı.

Ümummilli Lider yenidən hakimiyyətə gələn zaman Azərbaycanın ümumi daxili məhsulu cəmi 375 milyon manat idi. Eyni zamanda, büdcə gəlirlərimiz 100 milyon manat idi. Çox qısa zamanda ÜDM-dəki, yəni iqtisadiyyatdakı tənəzzülün qarşısı alındı və 1996-cı ildən etibarən ÜDM-dəki artım sonrakı dövrlərdə daha sürətli iqtisadi artıma çevrildi. ÜDM çox qısa zamanda 4,5 dəfə artdı, yəni bu, o deməkdir ki, Azərbaycan iqtisadiyyatı Heydər Əliyev hakimiyyətə gəldikdən bir neçə il sonra 5 dəfəyə yaxın yüksələ bildi. Eyni zamanda, həm dövlət gəlirlərimizdəki, həm də bütövlükdə, iqtisadiyyatdakı artım 2022-ci ildə Azərbaycan iqtisadiyyatının 6,1 milyard manata qədər yüksəlməsinə gətirib çıxardı. Təsəvvür edək ki, Ümummilli Lider hakimiyyətə gələn zaman Azərbaycanda iqtisadiyyatın həcmi cəmi 375 milyon manat idi. Çox qısa zamanda, yəni 2022-ci ildə bu rəqəm 6,1 milyard manata qədər yüksəldi. Bu, əslində, Ümummilli Liderin rəhbərliyi ilə həyata keçirilən islahatların iqtisadi nəticələri idi.

Ulu Öndərin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi idi. Qarabağı – Füzulini, Şuşanı işğaldan azad edən gənclər Ulu Öndər Heydər Əliyev məktəbinin, möhtərəm Prezident İlham Əliyevin idarəçiliyinin yetirmələridir. Bu baxımdan bu gün əldə etdiyimiz ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması məhz Ümummilli Liderimizin əsasını qoyduğu siyasətin nəticəsi olaraq qiymətləndirilməlidir. Təbii ki, onun əsasını qoyduğu siyasət son 21 ildə çox uğurla davam etdi. Əgər 1993-cü ildə büdcə gəlirlərimiz 100 milyon manat idisə, bu gün artıq 35 milyard manata yaxın büdcə gəlirlərimiz var. ÜDM-dəki artım kifayət qədər ciddi rəqəmlərlə ifadə olunur. Bu, o deməkdir ki, məhz 21

il ərzində həmin siyasətin daha da dərinləşməsi və eyni zamanda, qeyri-neft sektorunun drayverə çevrilməsi müşahidə olundu. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev**. Hörmətli xanım sədr, dəyərli həmkarlar, neçə gündür ki, Qazaxın 4 kəndinin geri qaytarılmasına qarşı Ermənistanda direniş göstərilir. Belə görünür ki, bu direniş aksiyasının təşkili indi də qriqorian kilsəsinə tapşırılıb. Həmin kilsənin qabağa verdiyi keşiş Baqrat da, böyüyü II Qaregin də I Vazgenin ötən əsrin 90-cı illərində oynadığı rolu oynayırlar ki, burada da təəccüblü heç nə yoxdur. Çünki elə hay mənbələrinin özlərinin bildirdiklərinə görə, onlar dindən çox yaxşı tanıdığımız bir ölkənin bəlli strukturuna bağlıdırlar. Üstəlik, qriqorian kilsəsinin neçə əsrdir ki, fitnə və terror yuvası kimi fəaliyyət göstərmək təcrübəsi də var. Bir sözlə, bu kilsə keçmişdəki ənənələrini davam etdirir.

Qəribədir ki, Qərbdəkilər də Paşinyana öz Qareginləri kimi yanaşırlar. Medialarına baxın, Ermənistan orada xaçlı yürüşlərinə romantik çalar vermək üçün bir zamanlar səlibçilərin uydurduqları ölkə, Paşinyan isə o uydurma ölkənin guya hökmdarı olmuş Presviter İohan kimi təqdim edilir ki, bu da təbiidir. Çünki indiki qlobal geosiyasi konyunktur həm də dini ayrı-seçkilik zəminində formalaşdırılıb.

Bu reallıqları, eləcə də son yarım ayda regionda baş verənləri göz önünə gətirsək, ötən həftə Bakıda keçirilən Mədəniyyətlərarası Dialoq Forumunun nə qədər böyük önəm daşıdığını görməmək mümkün deyil. Cənab İlham Əliyevin orada islamofobiyanı, yeni müstəmləkəçilik meyillərini kəskin tənqidi göstərdi ki, bu qəbildən olan tədbirlər dövlətimizin başçısının fevralın 14-də andiçmə

törənində haqqında danışdığı yeni xarici siyasət prioritetlərinin reallaşdırıldığı platformalardan biri kimi çıxış edir və edəcək.

Sonda ABŞ-ın O'Brayncasına açıqlama verib, sonra da O`Brayncasına hərəkət edən səfirinin Şuşaya səfəri haqda bir neçə kəlmə demək istəyirəm. Ağ Evdə və Dövlət Departamentində hay diasporuna sıx bağlı olanlar öz diplomatlarını pis vəziyyətdə qoymamalıdırlar. ABŞ 1945-ci ildə təslimçilik aktı imzalanan zaman alman feldmarşalı Keytelin təmsilçilərinə öldürücü baxışlarla nəzər salaraq "Biz bunlara da uduzmuşuq ki" dediyi Fransa deyil axı.

Hazırda işi məhkəmədə olan senator Menendesdən heç bir baxımdan fərqlənməyən bəzi ABŞ rəsmiləri bilməsə də, Pentaqondakı və digər strukturlardakı dərindüşüncəli adamlar Azərbaycanın bu regionda oynadığı roldan da, dövlətimizin qurucusu Ulu Öndərin Xəzər hövzəsini Qərbə açdığından da, Əfqanıstanda və bir çox başqa yerlərdə verdiyimiz dəstəkdən də, eləcə də Şuşanın necə azad edildiyindən də yaxşı xəbərdardırlar. Ona görə də bilirlər ki, Qarabağı Kosovoya çevirmək mümkünsüzdür.

Hörmətli xanım sədr, mən də burada Heydər Əliyev Fondu haqqında deyilən fikirlərə və təbriklərə qoşuluram. Onu yumşaq güc rəmzi və...

**Sədrlik edən.** Sağ olun. Kamal Cəfərov. Buyurun.

**K.Cəfərov.** Hörmətli xanım sədr, heç şübhəsiz, bu gün xalq olaraq əldə etdiyimiz Zəfər və uğurların təməlində Heydər Əliyev siyasəti dayanır. Onun müəllifi olduğu Azərbaycançılıq ideologiyası isə bizim milli kimliyimizdir. Millət olaraq qarşılaşdığımız ən böyük sınaq göstərdi ki, milli kimlik bütün dəyərlərdən, hətta dini kimlikdən də öndə gəlir və bu, ən uğurlu modeldir.

Bu gün biz məhz Əliyev idarəetməsi nəticəsində ərazi bütövlüyümüzü bərpa etmişik, suverenliyimizi təmin etmişik. Böyük və qüdrətli Azərbaycana doğru əmin addımlarla irəliləmək üçün məhz bu idarəetmənin əsasında dövlət kimliyimizi bəyan etməli və bütün qüvvələri bu kimlik ətrafında birləşdirməliyik. Bu dövlət kimliyi inklüzivdir. Gələcək inkişaf üçün ictimai və siyasi plüralizmi təşviq edir. Ona görə ki, Əliyev idarəçilik ideyası dövlət kimliyinin təməli kimi siyasi və hüquqi konstruksiyadan irəli bir anlayışdır. Misal üçün, bu dövlət kimliyimiz Azərbaycan Xalq Cümhuriyyəti irsinin gördüyü böyük işlərə yüksək qiymət verir. Ancaq, eyni zamanda, İrəvan xanlığının ermənilərə hədiyyə verilməsini cinayət kimi qiymətləndirir. Bu fikirlərin arxasında hədəf heç də diskriminasiya deyil, əksinə, tarixdən düzgün nəticə çıxarmaq və gələcək nəsilləri tərbiyə etməkdir. Bu dövlət kimliyi AXC–Müsavat cütlüyünə də öz qiymətini verərkən gənc nəslə xatırlatmaq istəyir ki, məsuliyyətsizlik, hakimiyyət uğrunda hər yola getmə, xəyanət işğala, hərc-mərcliyə səbəb olubdur və biz xalq olaraq uzun illər bunun əziyyətini çəkmişik.

Əliyev idarəetməsi əsasında qurulan dövlət kimliyi gələcək rifahımızın yol xəritəsidir. Bunu aktual bir nümunədə izah edə bilərəm. Müxtəlif siyasi qüvvələrin QHT-lərə qrantların verilməsi qaydaları ilə bağlı müxtəlif fikirləri tamamilə təbiidir. Ancaq burada mühüm olan niyyətdir. Əgər siyasi qüvvənin məqsədi dövlət–cəmiyyət münasibətlərinin inkişafıdırsa, bunu təşviq etmək tam təbiidir. Ancaq əgər həmin siyasi qüvvələrin niyyəti konstitusion quruluşa zərər vurmaq və ya regionda yeni geosiyasi xətlər çəkmək istəyən qüvvələrə yeni təsir imkanları yaratmaqdırsa, bu, yolverilməzdir. Bu məqamda

siyasi mənsubiyyətindən asılı olmayaraq, bütün qüvvələr dövlət maraqlarını müdafiə etməlidirlər.

Əziz həmkarlar, hədəfimiz daha qüdrətli və böyük Azərbaycandır. Qalib xalqın bütün təsisatları bu ideya ətrafında "dəmir yumruq" kimi birləşməlidir. Dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün təşəbbüsləri də məhz bu ideyaya xidmət edir. Ona görə də hər birimiz fərd olaraq özümüzə sual verməliyik: Qüdrətli və böyük Azərbaycan üçün dünən nə etmişik, bu gün nə edirik və sabah nə edəcəyik? Bu dövlət kimliyi də çağımızın əsas ideyası olmalıdır.

Sahibə xanım, yekunda mən də bütün təbriklərə qoşularaq Heydər Əliyev Fondunu yaranmasının 20 illiyi münasibəti ilə təbrik edirəm. Nə qədər ki fond yaşayacaq, biz də yaşayacağıq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Çox hörmətli Sahibə xanım, hörmətli deputatlar. Azərbaycanda yer tapa bilməyib xaricə çıxıb gedənlərin özlərini mühacir adlandırmağa mənəvi haqları yoxdur. Sevinc Osmanqızı, avantüristlər Aleks Raufoğlu (birinci adı Ələkbər olub), Beydulla Manaf başda olmaqla bunların heç biri mühacir deyil. Mühacirlər Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Topçubaşov və başqa görkəmli şəxsiyyətlər olublar. Savadsız, yelbeyin, vətənə bağlı olmayan adamlar mühacir deyillər, kimlərinsə əlində alətdirlər. Bunlar Azərbaycana qarşı yürüdülən ləyaqətsiz siyasətə dəstək veriblər, Zəfərimizi belə qəbul etmirlər.

ABŞ-ın 66 konqresmeni Nümayəndələr Palatasının Təxsisatlar Komitəsini Qarabağdan köçən ermənilərə 200 milyon dollar ayırmağa, ABŞ-ın Ermənistana hərbi yardımını artırmağa, Azərbaycana bütün hərbi və təhlükəsizlik təchizatlarını dayandırmağa çağırıb. Məktubda konqres-

menlər Ermənistana müdafiə üçün 20 milyon dollar da ayrılmasını tələb ediblər.

Amerikaya və Avropaya sığınan milli satqınlarımızdan fərqli olaraq ABŞ-dan və Avropadan da mühacir olanlar var. Birini misal çəkəcəyəm. Adını çəkdiyim şəxsin vicdanı Osmanqızının vicdan asqırtısına bənzəmir. "Vicdan asqırtısı" anlayışı böyük filosof Jan Pol Sartra məxsusdur. Nyu-Yorkda doğulmuş, yaşamış, baxışlarına görə dissident olan professor Maykl Parenti "Çirkli həqiqətlər" kitabında bu ölkəni mükəmməl xarakterizə edib. O yazır: "Dünyanın ən varlı dövləti bəşəriyyətə həmişə fəlakətlər gətirib və indi də ölkələrin daxili işlərinə müdaxilə etməkdə davam edir. Ölkənin problemləri isə saysız-hesabsızdır. Məsələn, hər il 30 minə yaxın amerikalı intihar edir. 13 milyon insan cinayətlərin qurbanına çevrilir. 37 milyon insan psixi vəziyyətlərinə nəzarət üçün tibbi preparatlar qəbul edir. Hər il 80 milyon insanın psixi köməyə ehtiyacı yaranır. Milyonlarca uşaq şiddət nəticəsində evdən qaçır, 5 milyon nəfər həbsxanalardadır, 4,5 milyon nəfər aclıq içərisindədir, 7-10 milyon arası işsizlik mövcuddur. Bu ölkə 12 ilin içərisində Vyetnamda 58 min əsgər itirdi. Bu müharibənin yüz minlərcə əlili oldu. Bu ölkədə bir neçə milyon nəfər öz əcəli ilə ölmür, zorakı səbəblərdən ölür".

Artıq "Pax-Americana" – "Amerika sülhü" paradiqması işləmir, qıc olub. Sülhü dəstəkləmək əvəzinə Ermənistana hərbi dəstək verilməsinə çağırış edirlər. Azərbaycan dünyada terrorun kökünün kəsilməsində müstəsna rolu olan ölkədir. Rasional antiterror əməliyyatı buna bariz nümunədir. Azərbaycan özünü bütün dünyaya sülh tərəfdarı olan dövlət kimi tanıtdırıb və tanıtdırmaqdadır.

Azərbaycanda keçiriləcək COP29 konfransı iqlim

dəyişikliyinə həsr olunur və bəşəriyyətin qayğısına qalmağa xidmət edir. Bəşəriyyət bunun faydalarını mütləq görəcəkdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Çox sağ olun, hörmətli sədr. Mən ilk öncə Sizi və Sizi müşayiət edən nümayəndə heyətinin üzvlərini aprelin 25-də Monteneqroya uğurlu səfərinizə görə təbrik edirəm və daha böyük uğurlar arzulayıram.

Hörmətli sədr, qarşıdan görkəmli dövlət xadimi Heydər Əliyevin doğum günü gəlir. Heydər Əliyev yenicə müstəqillik əldə etmiş və ağır günlərini yaşayan Azərbaycanı vətəndaş qarşıdurmasından xilas edib ölkəni dinc inkişaf yoluna çıxarmışdır. Onun misilsiz bacarığı sayəsində imzalanmış "Əsrin müqaviləsi" torpaqlarımızın işğaldan azad olunmasında, ölkəmizin yenidən qurulmasında müstəsna rol oynamaqdadır. Allah ruhunu şad etsin.

Bu gün Heydər Əliyevin davamçılarının əsas işi Azərbaycanı güclü iqtisadiyyata sahib demokratik hüquqi dövlətə çevirmək, ədalətli cəmiyyət qurmaq olmalıdır. Heydər Əliyev irsinə ən böyük töhfə bu ola bilər.

Çox əlamətdar haldır ki, böyük dövlət adamı Heydər Əliyevin adını daşıyan Heydər Əliyev Fondu bu gün 20 yaşını qeyd edir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fond ölkənin mədəni tərəqqisi üçün çoxsaylı elm, təhsil, səhiyyə, idman, ekoloji sahələrə aid proqramlar və humanitar layihələr həyata keçirir. Fond Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında, Azərbaycanın sivil və dünyəvi ölkə kimi beynəlxalq imicinin yüksəldilməsində, mədəniyyətimizin təbliğ edilməsində böyük işlər görür.

Mən çox istərdim ki, fond böyük dövlət adamı Heydər

Əliyevin adını daşıdığı üçün ölkəmizdə siyasi sistemin inkişafına ciddi töhfə versin, siyasi araşdırmaların aparıldığı və təhlükəsizlik məsələlərinin müzakirə olunduğu siyasi bir mərkəzə çevrilsin. Dünyanın bir çox ölkələrində görkəmli dövlət adamlarının adını daşıyan mərkəzlər, fondlar həm də bu işlə məşğul olurlar. Fondun bugünkü potensialı belə bir missiyanı həyata keçirməyə imkan verir. Region ölkələri ilə müqayisədə elm adamlarının, ali təhsillilərin, universitetlərin sayına görə biz geridə qalırıq. Çox istərdim ki, fond Heydər Əliyevin adını daşıyan siyasi və hüquqi elmlər universiteti təsis etsin. Bu, çox təqdirəlayiq bir hadisə olardı. Bu mənim arzularım idi.

Fondun gördüyü böyük işlərə görə onlara təşəkkürümü bildirirəm, gələcək fəaliyyətlərində uğurlar arzulayıram. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Azay Quliyev. Buyurun.

**A.Quliyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar! Hörmətli xanım sədr, Sizin də qeyd etdiyiniz kimi, üç gündən sonra Azərbaycan dövlətinin qurucusu, dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101 ili tamam olur. Bu gün, əlbəttə, Heydər Əliyev haqqında bu qısa müddət ərzində geniş danışmaq mümkün deyil. Ancaq hesab edirəm ki, Ulu Öndərin bütövlükdə dövlət xadimi kimi, Azərbaycan dövlətinin qurucusu kimi fəaliyyəti, irsi bu gün müasir Azərbaycandır, Azərbaycanın həyata keçirdiyi siyasətdir, dünyada oynadığı roldur, qazandığı nüfuzdur. Həm də Ulu Öndərin şəxsiyyətinin parlaqlığı, onun böyük siyasət ustası olması zaman keçdikcə, yəni illər ötdükcə daha yaxından hiss olunur. Digər ölkələrə baxdıqda, həmin ölkələrin bu gün düşdüyü durumu araşdırdıqda bir daha görürsən ki, Heydər Əliyev nə qədər böyük bir şəxsiyyət

idi. Məhz ötən əsrin 90-cı illərinin əvvəllərində – ən məşəqqətli bir vaxtda dövlət sükanı arxasına keçərək Azərbaycan dövlətinin elə bir möhtəşəm əsasını qoydu ki, bu dövlətçilik ənənəsi bu günə qədər nəinki inkişaf edir, hər il güclənir və öz sözünü dünya arenasında deməyi bacarır.

Heydər Əliyev tarixin bütün zamanlarında millət üçün, xalq üçün mücadilə aparan və bu mücadilənin şəksiz qəhrəmanı və lideri, qalibi olmuş çox nadir şəxsiyyətlərdəndir. Onun qalibiyyəti, şəxsiyyətinin və siyasətinin, bütövlükdə, dövlətçilik məfkurəsinin əsas nəticəsi məhz onun tərbiyə etdiyi, böyütdüyü, dövlətçilik ənənələri aşıladığı cənab İlham Əliyev kimi bir lideri Azərbaycan xalqına bəxş etməsidir. Elə bir lider ki, uzun müddət xalqımızın qarşısında duran ən önəmli, ən vacib və milli tapşırığı yerinə yetirdi, torpaqlarımızı işğaldan azad etdi.

Bu gün çox yaxşı, sevindirici bir haldır ki, Heydər Əliyev irsini davam etdirən, onu bütün dünyada təbliğ edən Heydər Əliyev Fondu fəaliyyət göstərir. Bu gün biz fondun 20 illik yubileyini qeyd edirik. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada fondun əməyi, işi olmasın. Bu gün milli mücadilədən, şəhid ailələrindən, qazilərdən tutmuş bütün sosial sahələrə qədər Heydər Əliyev Fondunun konkret işləri görünməkdədir. Ona görə də, hörmətli xanım sədr, mən də Sizin təbriklərə qoşularaq başda hörmətli Mehriban xanım olmaqla Heydər Əliyev Fondunun bütün kollektivini ürəkdən təbrik edirəm və fondun gələcək fəaliyyətində uğurlar arzulayıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Rzayev. Buyurun.

**T.Rzayev**. Çox sağ olun, hörmətli sədr. Hörmətli deputat həmkarlar, mən də Heydər Əliyev Fondu haqqında səsləndirilən qürurverici təbriklərə qoşuluram, Ümummilli Liderimizə Allahdan rəhmət, fonda isə öz işlərində uğurlar arzulayıram.

Almaniyanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Frank Şvabenin "Azərbaycanın geri, AŞPA-ya yolu olmadığı" fikri siyasi tərbiyəsizlikdir. Hörmətli həmkarımız Səməd Seyidov bu ləyaqətsiz deputatın layiqli cavabını verərək onu haqlı olaraq "siyasi terrorçu" adlandırmışdır. Həqiqətən, bu gün Şvabe kimi bədxah, əqidəsiz deputatlar öz əməlləri, fikirləri ilə AŞPA-da xalqımıza, türk dünyasına qarşı əsl siyasi və mənəvi terror həyata keçirirlər. Sözdə demokratiyadan, insan haqlarından, sülhdən, dövlətlərin suverenliyinə hörmətdən bəhs edən bəzi insanlar və təşkilatlar əməldə dediklərinin əksinə gedir, haqqı, ədaləti ayaqlar altına atır, insanların taleyini pula satır, xalqların faciəsinə rəvac verirlər.

Bu təşkilatlar indi böhtan, qərəz, şəxsi mənafe yuvasına çevrilmişlər. Çünki onlar bir mərkəzdən idarə olunurlar. Avropa İttifaqı ikili standartları təbliğ edir. Bunu Avropa Şurasının prezidenti Şarl Mişelin bu günlərdə Avropa siyasəti ilə bağlı səsləndirdiyi fikirlər bir daha aydın göstərir. ABŞ Dövlət Departamenti öz hesabatlarında saxta faktlara əsaslanır, parlament üzvləri anti-Azərbaycan təbliğatı aparırlar, AŞPA böhtan xarakterli qətnamələr qəbul edir. "Sərhədsiz Reportyorlar" Təşkilatı 2024-cü il üçün illik "Mətbuat Azadlığı İndeksi"ndə Azərbaycanı 180 ölkə arasında 160-cı yerdə yerləşdirir. Makron sayıqlamaları ilə gündəmə gəlir və sair. "Azərbaycanda insan hüquqlarına və qanunun aliliyinə dair vəziyyət pisdir, insanlar incidilir, jurnalistlər təqib olunur, mətbuat azadlığı məhdudlaşdırılır" fikirlərini söyləyənlər Fransada müsəlman uşaqlarının məktəblərə buraxılmamasını, açıq aksiya keçirənlərə qarşı zor tətbiq edilməsini, Amerikada tələbələrin aksiyasının zorla dağıdılmasını, küçələrdə insanların güllələnməsini, Ermənistandakı acınacaqlı

vəziyyəti nədənsə görmürlər.

İkili standartlara əsaslanan belə hesabatları, qətnamələri, indeks göstəricilərini bir çox ölkələr qəbul etmir və buna əhəmiyyət vermirlər. Çünki bu sənədlər sifarişlə, pulla hazırlanıb, beynəlxalq normalara, haqqa, ədalətə əsaslanmır. Avropa İttifaqının, Avropa Şurası Parlament Assambleyasının, ABŞ Dövlət Departamentinin, Avropa İnsan Hüquqları Məhkəməsinin, eləcə də bəzi beynəlxalq təşkilatların mövqeyi dünyada sülhün, əmin-amanlığın, demokratiyanın bərpasına deyil, müharibələrə, münaqişələrə, siyasi və mənəvi terrora xidmət etdiyi üçün qəbuledilməzdir. Dövlətimizin rəhbəri və xalqımız bunu belə qiymətləndirir və bu, belə də qiymətləndirilməlidir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxış Fazil Mustafanındır. Fazil müəllim, buyurun.

**F.Mustafa.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, Sizin və deputat həmkarım Soltan Məmmədovun Heydər Əliyev Fondunun 20 illiyi ilə bağlı söylədiyiniz bütün fikirlərə qoşuluram və mən də təbrik edirəm. Amma bir müşahidəmi burada söyləmək istəyirəm. Bir neçə gün öncə biz Heydər Əliyev Fondunun 20 illiyinə həsr olunmuş konsert proqramında iştirak etdik və nəyin şahidi olduq? Əslində, Heydər Əliyev Fondunun Azərbaycan tarixində gördüyü ən böyük, ən möhtəşəm iş yeni dövrün Azərbaycan mədəniyyət elitasını formalaşdırması oldu. Siyasi elita bu və ya digər standartlar üzrə həmişə formalaşa bilər. Biri gəlib o birindən yaxşı idarə edə bilər və cəmiyyəti bu istiqamətdə toparlamaq olar. Amma mədəniyyət elitasını formalaşdırmaq üçün bir anı, bir dövrü ötürdünsə, sonra 50 ilə, 100 ilə onu formalaşdırmaq olmur.

Mədəniyyətin elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev Fondunun dəstəyi və himayəsi hiss olunmasın. Bu, çox önəmli idi və ona görə də bu istiqamətdə görülən işlərin davamı Azərbaycanın, əslində, mədəniyyət elitasının daha da təkmilləşməsinə kömək edəcəkdir.

Digər bir məsələ. Burada bir neçə dəfə qaldırılıbdır. Vətəndaşları narahat edən vacib problemlərdən biri dəfn üzrə müavinətin alınması məsələsidir. Burada hörmətli komitə sədrimiz Musa müəllim də bir açıqlama vermişdi ki, bu istiqamətdə dəyişiklik hazırlanıb. Amma mənə müraciət edən bir neçə vətəndaşın bu qədər sıxıntı çəkməsi, açığı, məni bu ciddi problemi qaldırmağa vadar etdi. Deməli, vətəndaşın 17 il əmək stajı olub, işləyibdir. Şəkər xəstəliyinə görə 14 il yataqda qalıb, sonra vəfat edibdir. Həyat yoldaşı onun üçün dəfn müavinəti ala bilmir. Deyirlər, "sən heç bir yerdə işləməmisən və sığorta məbləği bunu ödəmək üçün imkan vermir". Açığı, bu prinsipi biz ortadan qaldırmalıyıq. İstənilən Azərbaycan vətəndaşı işləyib-işləməməsindən asılı olmayaraq, heç olmasa, öləndə bu pulu almalıdır. Bir çox vətəndaşımız həyatda ikən haqqı çatan müavinəti bəzən ala bilmir. Heç olmasa, öləndə bu müavinəti alsınlar. Bizdə əmək pensiyaçıları üçün 500 manatdır, digərləri üçün minimum məbləğin 3 qatı miqdarındadır. Amma bütün vətəndaşlara 300 manat da olsa, 400 manat da olsa, dəfn müavinəti verilməlidir. İnsanları bu sıxıntıdan qurtarmalıyıq.

Digər bir məsələ qaynar xətlərlə bağlıdır. Mənə elə gəlir ki, bu termin düzgün seçilməyibdir. Bir çox nazirliklərdə, qurumlarda bu nə ılıq xətdir, nə də soyuq xətdir. Çox vaxt cavab verilmir. Yaxud da "pullu əsaslarla qaynar xətt" anlayışı ortadan qalxmalıdır. Mən konkret ad çəkmirəm ki, kimi isə hədəf götürməyim. Amma bu məsələ

həllini tapmalıdır.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz gündəliyin məsələlərinə keçirik. Qeyd edim ki, bu gün bizim 18 məsələmiz var. Gündəliyin ilk 5 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir.

İndi isə 1-ci məsələyə keçirik. 1-ci məsələ, bildiyiniz kimi, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məlumat vermək üçün mən komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun, məlumat verin.

**N.Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Məlumat üçün bildirim ki, hər iki oxunuş zamanı layihə barədə geniş məlumat verilmişdir. Birinci oxunuşdan sonra işçi qaydada, ikinci oxunuş zamanı isə plenar iclasda deputat həmkarlarımız tərəfindən səsləndirilən müxtəlif suallar cavablandırılmışdır. Hazırda ikinci oxunuşdan sonra layihədə texniki xarakterli kiçik dəyişikliklər olunmuşdur. Deputat həmkarlarımdan layihəni yenidən dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim. Layihəyə daha 3 komitədə baxılıb. Hörmətli həmkarlar, birinci komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsinin üçüncü oxunuş üçün təqdim olunmuş versiyasına bizim

komitənin rəyi müsbətdir. Həmkarlarımı layihəyə səs verməyə çağırıram.Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də baxılıb. Komitənin sədri Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**S.Qurbanov**, *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Üçüncü oxunuşda da komitə üzvləri layihəni dəstəkləyirlər. Olduğu kimi səsə qoymağı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Üçüncü oxunuşdur, ancaq görürəm, yazılanlar var. Fazil müəllim, buyurun. Sualınız var?

**F.Mustafa**. Təşəkkür edirəm, xanım sədr. Əslində, sual xarakterlidir. 3.2-ci maddədə "dəniz üzgüçülüyünə təhlükə və maneə yaradan" ifadəsi işlənib. Burada "dəniz üzgüçülüyü"nün, məncə, izahı verilməlidir. Bu, qayıqların da dəniz idman növlərinə aid olması, yaxud fərdi insanların üzgüçülüklə məşğul olması ilə bağlıdır. Bunun bir az genişləndirilməsi, dəqiqləşdirilməsi daha doğru olar. Çünki burada dəniz üzgüçülüyü həm də ayrı-ayrı idmançıların dənizdə üzgüçülüklə məşğul olmasını, idman əyləncəsini, yaxud da idman fəaliyyəti ilə məşğul olmasını da ehtiva edir. Məncə, bunu bir az dəqiqləşdirmək olar ki, bəzi müddəalar sonra problem yaratmasın. Mən qanun layihəsini dəstəkləyirəm, normaldır. İnsanlar var ki, orada, məsələn, yelkənli gəmidə hansı isə bir məşq prosesi keçirlər. Tutaq ki, orada süni ada salındı, buna mane olmaq nəzərdə tutulur? Yəni bu məsələlərə aydınlıq gətirilsə, məncə, daha doğru olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Sabir Rüstəmxanlı.

**S.Rüstəmxanlı**. Təşəkkür edirəm, hörmətli sədr. Mən çıxışım üçün ayrılan vaxtdan istifadə edərək iclasın əvvəlində Sizin Heydər Əliyev Fondunun 20 illiyi ilə bağlı söylədiklərinizi qiymətləndirirəm. Oradakı fikirlər hamısı bizim ürəyimizcədir. Fürsətdən istifadə edib Heydər Əliyev Fondunun rəhbərliyini və kollektivini Azərbaycan üçün dünyada gördüyü işlər münasibəti ilə, eləcə də Azərbaycanda tibb, mədəniyyət, təhsil və digər sahələrdəki fəaliyyətinə görə təbrik edirəm.

Mən, sadəcə, bir məsələyə toxunmaq istəyirəm. Bu süni adalar məsələsi ciddi məsələdir. Bilirik, yaxşıdır, bunun bir sıra Yaxın Şərq ölkələrində örnəkləri var. Amma Xəzərdə bizim adalarımız var. Deyək ki, Böyük Zirə (Nargin) adası, Jiloy adası, Qızılağac qoruğu ilə üzbəüz vaxtı ilə iki sovxozun yerləşdiyi böyük ada. Bu adalar boşdur. Jiloy adasında ancaq neftçilər yaşayırlar. Nargin adası gözümüzün qabağındadır, neçə illərdir deyirik ki, bunu Bakının ulduzuna çevirmək olar. Axşamlar camaat, heç olmasa, açıq dənizə çıxa bilər. Adadakı o acı xatirə ki, vaxtı ikən orada 10 min əsir saxlanılıb, onu unutdurmaq üçün həm adada abidə ucaldılar, həm də ora abadlaşdırılar. Bu məsələ, ümumiyyətlə, illərlə cavabsız qalır. Mən bunların bir-biri ilə nə qədər bağlı olduğunu bilmirəm. Amma hər halda hesab edirəm ki, süni adadan əvvəl bu normal adaları abadlaşdırmaq lazımdır. Nə mane olur? O neftli torpağı, şor torpağı, o süni ada yaradılacaq torpağı aparıb bu adaları bir az abadlaşdıraq, orada gözəl yaşayış yerləri tikək. Məncə, bu, çox vacib məsələdir və bu layihə ilə bağlı hər halda xatırlatmaq istədim.

**Sədrlik edən.** Sağ olun. Tahir müəllim, layihəyə sizin komitədə də baxılıb. Xahiş edirəm, komitənin rəyini

bildirin. Hamı danışdı, birinci oxunuşun da, ikinci oxunuşun da fikirləri deyildi. İndi Siz buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli sədr, qanun layihəsi bizim komitədə də müzakirə olunub, rəyimiz müsbətdir. Sağ olun.

**Sədrlik edən.** Nurlan müəllim, buyurun.

**N.Həsənov**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Məlumat üçün bildirim ki, hörmətli Fazil müəllimin verdiyi sualla, dəniz üzgüçülüyünə təhlükə ilə bağlı məsələlər "Dəniz limanları haqqında" Qanunla və eyni zamanda, "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiya ilə tənzimlənir. Eyni zamanda, hörmətli Sabir müəllimin verdiyi sualla bağlı qeyd etmək lazımdır ki, bu qanun layihəsi, sadəcə, Xəzər dənizinin Azərbaycan Respublikasında olan hissəsində süni torpaq sahələrinin yaradılması ilə bağlı ictimai münasibətləri tənzimləyir. Çox sağ olun.

**Sədrlik edən.** Hörmətli həmkarlar, biz qanun layihəsini səsə qoyuruq. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi növbəti məsələyə keçirik. "Azərbaycan Respubli-

kası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" Qanunda və digər 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Ziyafət Əsgərova söz verirəm. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli sədr, komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Hörmətli həmkarlar, bilirsiniz ki, bu layihəyə 2 komitədə də baxılıb. Mədəniyyət komitəsinin rəyini bildirmək üçün komitənin sədri Fazil Mustafaya söz verirəm. Fazil müəllim, buyurun.

**F.Mustafa,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Komitəmizdə məsələyə baxılıb. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün mən komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. Qüdrət müəllimin sözü var. Qüdrət Həsənquliyev, buyurun.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, hörmətli sədr. Çalışacağam, məsələyə qısa münasibət bildirim. Biz bu gün "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" Qanuna dəyişiklik edirik. Qarşıdan İkinci Dünya müharibəsində qələbənin ildönümü gəlir – 9 may. Bu münasibətlə mən hər kəsi təbrik edirəm. O müharibədə dünyasını dəyişmiş insanların Allah ruhlarını şad etsin. Onları hörmətlə anıram.

Cənab Prezident mayın 2-də sərəncam imzaladı ki, İkinci Dünya müharibəsi veteranlarına, onların dul qalmış arvadlarına, arxa cəbhə veteranlarına ümumilikdə 3 milyon manat və hər birinə min manat pul ayrılsın. Buna görə cənab Prezidentə təşəkkür edirəm.

Hörmətli sədr, bizim 44 günlük Vətən müharibəmizdə torpaqlarımızı işğaldan azad etmiş bir qrup hərbçi bir neçə gün bundan əvvəl mənimlə görüşdü və müraciət etdilər. Onlar Prezidentin sərəncamına uyğun olaraq, 2020-ci il sentyabrın 28-də səfərbərlik elan olunanda orduya çağırılıblar və arxa cəbhədə ordunun təsisatı ilə məşğul olublar. Amma təqribən 4500 nəfər müharibə veteranı kimi tanınmır. Bu da ədalətsizlikdir. Biz İkinci Dünya müharibəsində arxa cəbhədə olanları veteran kimi tanıyırıq, amma Vətən müharibəsində olanları tanımırıq. Söhbət 80 manat veteran pulundan gedir. Onlar bildirirlər ki, həmin puldan imtina edirlər. Sadəcə, ola bilsin ki, "arxa cəbhə veteranı" adında yeni statusda bir ad verilsin. Onlar, sadəcə, istəyirlər ki, bu müharibədə iştirak etmələri dövlət tərəfindən hansısa formada qeyd olunsun. Bunu da həmkarlarımın və hörmətli sədr, Sizin diqqətinizə çatdırdım. Çox sağ olun. Layihəyə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, qeyd edim ki, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə də bir-birinə yaxındır. 3-cü məsələ "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 4-cü məsələ isə "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunda və digər 6 qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Onu da deyim ki, hər iki layihəyə Elm və təhsil komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən hörmətli Bəxtiyar müəllimə söz verirəm. Bəxtiyar Əliyev, buyurun.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Hörmətli Sahibə xanım, mən də Sizin Ümummilli Lider Heydər Əliyev və onun amallarını bu gün uğurla gerçəkləşdirən Heydər Əliyev Fondunun 20 illiyi münasibəti ilə dediyiniz bütün fikirlərə qoşuluram, dəstəkləyirəm. Təkcə bir faktı

qeyd etmək istəyirəm ki, bu gün müzakirə etdiyimiz həm "Təhsil haqqında", həm də "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanunlar da Ulu Öndərin ideyalarından irəli gəlir. Qeyd etmək istərdim ki, ölkəmizin ən çətin bir zamanında, ölüm-qalım bir dövründə – 1993-cü ildə siyasi hakimiyyətə qayıdan və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri kimi Ümummilli Lider Heydər Əliyev 1993-cü il sentyabrın 3-də məhz "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanun layihəsinin təşəbbüskarı olmuş və onu qəbul etmişdir.

Bu dövr ərzində bu qanuna mahiyyətcə o qədər də böyük dəyişikliklər edilməmişdir. Amma əhəmiyyəti ondan ibarət idi ki, bu, şəhidlərimizə, onların adına verilən qiymət, ordu quruculuğuna, dövlətin qüdrətinin artırılmasına və eyni zamanda, hər bir Azərbaycan vətəndaşına həmin çətin dövrdə Heydər Əliyevin amalının göstəricisidir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsi Milli Məclisin 2024-cü il aprelin 19-da keçirilən iclasında ikinci oxunuşda müzakirə edilmiş və yekdilliklə qəbul olunmuşdur. Qanun layihəsinin müzakirəsi zamanı deputat həmkarlarım çıxış etmiş, qanun layihəsini tam dəstəkləmiş, eyni zamanda, qanunun predmetinə aid bir neçə əlavə təkliflər də irəli sürmüşlər. Hörmətli deputat həmkarlarıma çıxışlarına və qanun layihəsini dəstəklədiklərinə görə öz dərin təşəkkürümü bildirirəm.

İkinci oxunuş zamanı deputatların təklif etdikləri əlavələr qanun layihəsini təqdim etmiş qanunvericilik təşəbbüsü hüququnun subyektinə təqdim olunmuşdur. Cavabda

əsaslandırılmışdır ki, təklif və əlavələr böyük maliyyə tutumludur. Hazırda bunu təmin etmək mümkün deyil və gələcəkdə yeni yaranan maliyyə imkanları içərisində həmin məsələlərə yenidən baxıla bilər. Amma hazırda qanun layihəsinə dəyişiklik edilməsi məqsədəmüvafiq deyil. Deputat həmkarlarımdan bunu nəzərə almalarını xahiş edirəm.

Qeyd edim ki, Milli Məclisin Elm və təhsil komitəsində qanun layihəsi üçüncü oxunuşda geniş müzakirə olunmuş, heç bir əlavə və dəyişiklik edilmədən yekdilliklə müsbət rəylə üçüncü oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Deputat həmkarlarımdan qanun layihəsini növbəti dəfə dəstəkləmələrini xahiş edirəm.

Hörmətli deputatlar, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunda və digər 6 qanunda edilən dəyişikliklər "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırma xarakteri daşıyır. Elm və təhsil komitəsində bu qanun layihəsi də geniş müzakirə edilmiş və yekdilliklə müsbət rəylə üçüncü oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Deputat həmkarlarımdan bu qanun layihəsini də dəstəkləmələrini xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bəxtiyar müəllim. Hörmətli həmkarlar, bildiyiniz kimi, 4-cü məsələyə daha 3 komitədə baxılmışdır. Bu gün mən həmin komitələrin təmsilçilərinə söz verəcəyəm. Əmək və sosial siyasət komitəsinin rəyini bildirmək üçün komitənin üzvü hörmətli Əziz Ələkbərova söz verirəm. Əziz müəllim, buyurun.

**Ə.Ələkbərov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Çox sağ olun, təşəkkür edirəm. Qanun layihəsinə üçüncü oxunuşda Əmək və sosial siyasət komitəsində də baxılmışdır. Rəy müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əziz müəllim, çox sağ olun. Bu məsələyə İnsan hüquqları komitəsində də baxılmışdır. Məsələ ilə bağlı məlumat vermək üçün komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Buyurun.

**Z.Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Komitənin rəyi müsbətdir. Sağ olun.

**Sədrlik edən.** Ailə, qadın və uşaq məsələləri komitəsində də bu məsələyə baxılıb. Komitənin rəyini bildirmək üçün mən komitənin sədr müavini hörmətli Jalə xanım Əliyevaya söz verirəm. Jalə xanım, buyurun.

**J.Əliyeva,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Mən qanun layihəsini təqdim etməzdən əvvəl ilk növbədə bu günlərdə anadan olmasının 101-ci ildönümünü qürurla qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin əbədiyaşarlığı qarşısında ehtiramla baş əyir, adını daşıyan, Azərbaycanın humanizm siyasəti xəritəsinin parlaq ulduzuna çevrilən Heydər Əliyev Fondunu və onun rəhbəri, ölkəmizin birinci xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanı fondun 20 illik yubileyi münasibəti ilə təbrik edir, göstərdikləri misilsiz xidmətlərə görə seçicilərim və öz adımdan sonsuz minnətdarlığımı bildirirəm.

Eyni zamanda, hörmətli xanım sədr, Ümummilli Lide-

rin anadan olmasının 101-ci ildönümü və fondun yaradılmasının 20 illiyi münasibəti ilə bir az əvvəl səsləndirdiyiniz dəyərli fikirlərə görə Sizə və təqdimatına görə hörmətli həmkarım Soltan Məmmədova təşəkkür edirəm.

Qanun layihəsinə gəldikdə isə komitəmizdə müzakirə edilmişdir, əlavə rəy və təkliflər olmamışdır. Layihə üçüncü oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Məlumatı nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Rəşad Mahmudov. Rəşad müəllim, yazılmısınız, buyurun.

**R.Mahmudov.** Çox təşəkkür edirəm. Mən, sadəcə, texniki bir məsələni gündəmə gətirmək istəyirəm. Belə ki, yeni qanun layihəsində özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi üçün nəzərdə tutulan güzəştli insanlardan bəhs olunur. Orada bir ifadə yazılıb: “20 yaşına çatmamış və orqanizmin funksiyalarının 81–100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan...”.

Diqqətinizə çatdırmaq istəyirəm ki, orqanizm bir bütündür, orqanlardan, toxumalardan və sistemlərdən əmələ gəlir. Orqanizmin funksiyalarının bütünlüklə 81–100 faiz pozulması, əslində, yaşamla əlaqəsi olmayan bir məsələdir. Ona görə də bu cümlə “orqanizmin hər hansı bir orqanının və ya üzvünün funksiyalarının 81–100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan” kimi dəyişdirilə bilər. Ya da əgər burada söhbət birinci dərəcəli əlillikdən gedirsə, orada konkret olaraq mübahisələrin yaranmaması üçün “hər hansı bir səbəbdən ötrü birinci dərəcəli əlilliyi olan valideyni olan ailə” ifadəsi yazılsa, məncə, sonrakı mübahisələrin qarşısı alınmış olar.

Fondun 5-ci ildönümündə səhiyyə sahəsindəki fəaliy-

yətimizə görə şəxsən Mehriban xanımdan aldığımız ilk "Qızıl çinar" mükafatının şərəfini və məsuliyyətini dərk edən bir insan kimi mən də fürsətdən istifadə edərək Heydər Əliyev Fondunun 20 illik yubileyi münasibətilə burada səsləndirilən bütün təbriklərə qoşuluram.

Belə bir deyim var, deyirlər, yaxşı şey inananların başına gəlir, daha yaxşı şey inananların və səbir edənlərin başına gəlir, ən yaxşı şey isə inananların, səbir edənlərin və əsla vaz keçməyənlərin başına gəlir. Məhz Ulu Öndər tərəfindən inanılaraq, səbir edilərək təbliğ olunan Azərbaycan həqiqətlərinin onun fiziki olaraq aramızdan köçdükdən sonra da davamlı bir şəkildə, əsla vaz keçilmədən cənab Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva tərəfindən davam etdirilməsi bugünkü uğurlarımızın əsas səbəblərindən biridir. Mən də bir vətəndaş kimi Mehriban xanım başda olmaqla Heydər Əliyev Fondunun hər bir əməkdaşına görmüş olduqları bu incə, çox mötəbər işlərə görə bir daha təşəkkürümü bildirirəm. Fürsət yaratdığınız üçün təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəxtiyar müəllim, buyurun.

**B.Əliyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli Rəşad müəllimin qaldırdığı məsələ ilə bağlı qeyd etmək istəyirəm ki, orqanizm funksiyalarının pozulması ilə bağlı məsələlər müvafiq qanunvericiliklə müəyyən edilir və orada faiz dərəcələri müəyyənləşdirilibdir – 31–60 faizədək, 61–80 faizədək və 81–100 faizədək. Əvvəlki anlayışlarda bu, birinci, ikinci və üçüncü qrup əlilliyi müəyyən edilmiş şəxslər anlamına gəlir.

Nazirlər Kabinetinin müvafiq qanuna uyğun təsdiq etdiyi qaydalarda 14 xəstəlik üzrə orqanizm funksiyalarının pozulması müəyyənləşdirilir, buna uyğun da əlillik

müəyyən edilir. Burada heç bir problem və heç bir qaranlıq məsələ də yoxdur. Cənab Prezident də vaxtı ilə orqanizm funksiyalarının 61–100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin təhsil haqqı xərclərinin ödənilməsi haqqında müvafiq sərəncam imzalayıbdır. Bu qanun da həmin qanunlardan və sərəncamlardan irəli gələn məsələlərdir. Hesab edirəm ki, burada vətəndaşları narahat edə biləcək heç bir məsələ yoxdur. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bəxtiyar müəllim. Yadımdadır, məsələ bir neçə il bundan qabaq burada da müzakirə olunmuşdu.

Hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyacağam. İndi isə xahiş edirəm, 3-cü məsələyə, yəni "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə xahiş edirəm, 4-cü məsələdə olan qanuna münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Gündəliyimizdə olan 5-ci məsələ "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Yenə də məsələyə dair məlumat vermək üçün mən Nurlan Həsənova söz verirəm. Buyurun.

**N.Həsənov.** Hörmətli Sahibə xanım, hər iki oxunuş zamanı məlumat verilmişdir, layihə ilə bağlı hər hansı bir rəy və təklif yoxdur. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ 6-cı məsələdir. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" 2023-cü il 9 iyun tarixli Konstitusiya Qanununun

icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Adından da göründüyü kimi, hörmətli həmkarlar, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır və qanunvericiliyin tələbinə əsasən bir oxunuşda qəbul ediləcək. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Buyurun, Kamal müəllim.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Əziz həmkarlar, ötən il iyunun 9-da "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili haqqında" Konstitusiya Qanununa dəyişiklikləri qəbul etmişik. Bu gün də müzakirəmizə təqdim edilən təkliflər, hörmətli xanım sədrin də qeyd etdiyi kimi, məhz həmin Konstitusiya qanununa uyğunlaşdırma xarakteri daşıyır. Ümumilikdə 3 məcəllədə və 5 qanunda dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Biz bu qanun layihəsi ətrafında ötən il geniş müzakirələr aparmışıq. Ancaq bir neçəsini yenə xatırlatmaq istəyirəm. Misal üçün, "Psixiatriya yardımı haqqında" Qanun daxil olmaqla 2 məcəllədə və 3 qanunda Milli preventiv qrup tərəfindən həyata keçirilən başçəkmələr zamanı müəssisənin şəraiti və orada saxlanılan şəxslərə göstərilən rəftarı protokollaşdırmaq üçün texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyat aparmaq hüququ verilir.

Əziz həmkarlar, təklif edilən dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır. Məqsəd Ombudsman Aparatına həvalə etdiyimiz səlahiyyətlərin sahəvi qanunlar vasitəsi ilə səmərəli icrasını təmin etməkdir. Xahiş edirəm, səs verəsiniz.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bu məsələyə daha 5 komitədə baxılıb. Birinci komitə İnsan hüquqları komitəsidir. Zahid müəllim, komitənin sədrisiniz, buyurun, məlumat verin.

**Z.Oruc.** Təşəkkür edirəm, hörmətli sədr. Qeyd olunduğu kimi, həqiqətən, bu, insan hüquqlarının xeyrinə olan dəyişikliklərdir. İkincisi, bizim insan hüquqları üzrə müvəkkilə verdiyimiz daha genişlənmiş səlahiyyətlərin burada sahəvi qanunlarda da möhkəmləndirilməsidir. Komitənin rəyi müsbət olub. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Zahid müəllim. İkinci komitə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsidir. Komitənin rəyini bildirmək üçün, Ziyafət müəllim, mən Sizə söz verirəm. Buyurun. Ziyafət Əsgərov.

**Z.Əsgərov.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, komitənin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. Layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılıb. Jalə xanım, bu gün Siz məlumat verirsiniz. Buyurun. Jalə Əliyeva.

**J.Əliyeva.** Təşəkkür edirəm. Qeyd olunduğu kimi, layihədə ümumilikdə 3 məcəllədə və 5 qanunda, o cümlədən komitəmizin fəaliyyət istiqamətlərinə uyğun olan "Uşaq hüquqları haqqında", "Psixiatriya yardımı haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişikliklərin edilməsi nəzərdə tutulur. Qanun layihəsi komitəmizdə müzakirə edilmişdir. Əlavə rəy və təkliflər olmamışdır, layihə Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Məlumatı nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Səhiyyə komitəsinin rəyini bildirmək üçün mən komitənin sədri hörmətli Əhliman Əmiraslanova söz verirəm. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov.** Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Səhiyyə komitəsinin qanun layihəsi ilə bağlı rəyi müsbətdir. Səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Layihəyə Əmək və sosial siyasət komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanuna təklif edilən dəyişikliklər "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsində monitorinq və təşviq üzrə müstəqil monitorinq mexanizmi funksiyasının ombudsman tərəfindən həyata keçirilməsinə hüquqi baza yaradılması məqsədi daşıyır.

Məlum olduğu kimi, Azərbaycan BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasını 2008-ci ildə ratifikasiya edibdir. Bu konvensiyaya uyğun olaraq, qanunda da müvafiq dəyişikliklərin edilməsi tövsiyə olunur. Komitənin rəyi müsbətdir, səsə qoymağınızı xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. İki nəfər çıxış etmək istəyən var. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli mətbuat nümayəndələri. Hörmətli xanım sədr, mən də Sizin Ümummilli Liderlə, Heydər Əliyev Fondunun yaranmasının 20 illiyi ilə bağlı olan çıxışınıza qoşuluram. O cümlədən deputat həmkarlarıma gözəl fikirlərinə görə təşəkkürümü bildirirəm.

Qeyd etmək istəyirəm ki, Ümummilli Liderin də, cənab

Prezidentin də əsas həyat qayəsi, əsas prinsipləri insan hüquqlarının qorunmasıdır. Əgər biz tarixə nəzər salsaq, görərik ki, postsovet məkanında ilk dəfə ölüm cəzasına məhz Ümummilli Lider moratorium qoyub və ondan sonra Azərbaycanda onu ləğv edib.

Həm Ümummilli Liderin, həm də cənab Prezidentin dövründə 70-ə yaxın əfv sərəncamı imzalanıb, 13 amnistiya aktı həyata keçirilib. Ən böyük amnistiya aktlarından biri məhz Heydər Əliyev Fondunun prezidenti hörmətli Mehriban xanımın deputat olduğu dövrdə onun qanunvericilik təşəbbüsü ilə həyata keçirilib.

İnsan hüquqlarına diqqət, qayğı cənab Prezident tərəfindən, Heydər Əliyev Fondu tərəfindən daim diqqət mərkəzindədir. Fond tərəfindən bir çox uşaqların ürək əməliyyatı həyata keçirilib. Bu gün Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında Heydər Əliyev Fondunun müstəsna əməyi var.

Hörmətli xanım sədr, bu gün insan hüquqları dünyada beynəlxalq hüququn prinsipi deyil. O, ayrı-ayrı dövlətlərin və beynəlxalq təşkilatların ayrı-ayrı ölkələrə qarşı qərəzli, məkrli niyyətlərini həyata keçirmək üçün bir alətə çevrilib. Son dövrlərdə görürük ki, istər Avropa Parlamenti, istərsə də Amerika konqresmenləri tərəfindən insan hüquqları ilə bağlı bu və ya digər formada Azərbaycan haqqında qərəzli qərarlar qəbul olunur, hətta sanksiyalar tətbiq edilməsi təklif olunur. Bu sanksiyaları tətbiq etməyə çalışırlar. Onların sanksiyaları heç bir əhəmiyyət daşımır. Amma bununla yanaşı, görürük, o insanlara sanksiyalar tətbiq olunması tələb edilir ki, onlar bu gün ləyaqətlə Azərbaycan dövlətçiliyinə, Azərbaycan xalqına, millətinə xidmət göstərirlər. O insanlara qarşı sanksiyalar tələb olunur ki, onlar ermənilərə qarşı mübarizə aparıblar.

Bu gün qondarma respublikanın cinayətkar rəhbərləri Azərbaycanda Bakı şəhərində müəyyən təşkilatda çay içirlər, artıq orada izahat verirlər. O insanlara qarşı bu addımlar atılır ki, Azərbaycanın ən gözəl guşələrində və mədəni paytaxtı olan Şuşanın alınmasında canı ilə, qanı ilə iştirak edən insanlardır. Bunları etməklə ermənilərin intiqamını bu və ya digər konqresdə bu formada həyata keçirirlər. Mən bunları tamamilə kənara qoyuram.

Məni düşündürən bir məsələ var. Ata-anasını tanımayan istər Benilüks ölkələri, istər Fransa deputatları, istərsə də Azərbaycanı xəritədə tapa bilməyən Amerika Konqresinin üzvləri bu gün Azərbaycanda hansısa hakimin, hansısa kənd rayonunda işləyən müstəntiqin adını əzbər şəkildə müəyyən sanksiyalara tətbiq edirlər. Burada oturanların böyük əksəriyyəti heç o adamların adını, soyadını bilmir, özlərini tanımır. Hakimləri biz təyin etdiyimizə görə bəzilərini tanıyırıq, bəzilərini heç tanımırıq. Ortaya nə çıxır? Bu gün Azərbaycandan məlumat ötürən o şəxslər – antimilli şura üzvləri, tiktoker Əli Kərimli, onun dəstəsi öz adamları olan valyuta dəllallarını, o cümlədən ev alverçilərini, toyuq oğrularını siyasi məhbus kimi cəmiyyətə sırımaq istəyir və bunların hüquqlarının pozulduğunu deyirlər. Yaxud xaricdən maliyyə alıb Azərbaycan əleyhinə iş aparan jurnalistlərlə bağlı. Mənbəyi məlum olmayan pullardır. Bu adamlar həm Azərbaycan Ordusuna, həm Azərbaycan hökumətinə, həm də Azərbaycan dövlətinə qarşı qarayaxma ilə məşğuldurlar.

Azərbaycan yeganə ölkələrdən biridir ki, burada 700-dən artıq jurnalistə cənab Prezident tərəfindən pulsuz ev verilibdir. Gələcəkdə əhali Qarabağa köçdükcə o boş qalan evlərin, yəqin ki, növbədə olan digər jurnalistlərə verilməsinə kömək ediləcək. Hansı ölkənin nümunəsində

bunu göstərmək olar?

Hamıdan tələb olunan odur ki, qanuna riayət etsinlər, qanunu pozmasınlar. Qanun hansı partiyanın, hansı təşkilatın üzvü olmasından asılı olmayaraq, hamı üçün eynidir.

Düzdür, Milli Məclis də bununla əlaqədar ardıcıl şəkildə çox kəskin bəyanatlar veribdir. Bundan sonra da bunu davam etdirməliyik, onları dünyada ifşa etməliyik. Təşəkkür edirəm. Qanun layihəsinə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Ombudsman haqqında qanuna səs verəcəksiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Aydın müəllim, xahiş edirəm, qanun layihəsi haqqında danışın. Bu, 3 dəqiqəlik çıxış deyil. Buyurun.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, Sahibə xanım. Təklif edilən düzəlişləri bəyənirəm və səs verəcəyəm. Ombudsman institutu yarandığı gündən Azərbaycanda özünü çox ciddi bir qurum kimi təsdiqləyə bilib. İlk ombudsmanımız Elmira xanım Süleymanova, – o, bu yaxınlarda dünyasını dəyişdi, Allah ona rəhmət eləsin, – ombudsmanın fəaliyyətinin genişlənməsi, dünyada tanınması üçün çox böyük işlər gördü. Eyni zamanda, hazırkı ombudsmanımız Səbinə xanım Əliyeva üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirir. Vətən müharibəsinə qədər vaxtaşırı cəbhə xəttinə yaxın kəndləri ermənilər atəşə tutarkən biz Səbinə xanımı həmin yerlərdə görürdük. Səbinə xanımın beynəlxalq tədbirlərdə çıxışını görürdük. Bu yaxınlarda Xankəndi şəhərində yerli erməni əhalisi ilə görüşü Azərbaycan dövlətinin humanist xarakterini, eyni zamanda, vətəndaş hüquqlarının qorunmasındakı fəaliyyətini göstərdi.

Mənim bizə təqdim edilən təkliflərlə bağlı sualım var.

Burada bildirilir ki, ombudsman və Milli preventiv qrupun üzvləri görüşlər keçirirlər, qeydiyyatlar apara bilirlər. Mənim üçün maraqlıdır, bu görüşlər ona edilən müraciətlər əsasında aparılır, yoxsa ombudsman və qrupun üzvləri öz təşəbbüsləri ilə həbsdə saxlanılan istənilən şəxslərlə istədikləri vaxt görüş təşkil edə bilərlər? Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim. Kamal müəllim, sözünüz var, buyurun.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli Aydın müəllim, Ombudsman Aparatının fəaliyyətinin mexanizmi elədir ki, onlar heç bir quruma məlumat vermədən, xəbərdarlıq etmədən növbədənkənar başçəkmələr həyata keçirirlər və orada gördükləri, şahid olduqları hadisələri, orada saxlanılan şəxslərə göstərilən rəftarı dərhal bu texniki vasitələrə daxil olmaqla protokollaşdırırlar. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 11 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. Onu da deyim ki, növbəti 3 məsələ möhtərəm cənab Prezidentin bir

məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə yaxındır. Gündəliyin 7-ci məsələsi “Tütün və tütün məmulatı haqqında” Qanunda, 8-ci məsələsi “Qida təhlükəsizliyi haqqında” Qanunda, 9-cu məsələsi isə Vergi və Gömrük məcəllələrində və 2 qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Təklif edirəm ki, əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, həmişə olduğu kimi, onların müzakirəsini birgə aparaq, səsverməni isə ayrı keçirək.

Qanun layihələrinə 2 komitədə – Aqrar siyasət komitəsində və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Mən əvvəlcə Aqrar siyasət komitəsinin sədrinə söz verəcəyəm. Hörmətli Tahir müəllim, Siz 7-ci və 8-ci məsələlərə dair məlumat verin, 9-cu məsələ barəsində isə komitənin rəyini bildirin. Xahiş edirəm, buyurun.

**T.Rzayev.** Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar. Qanunlara edilmiş dəyişikliklər barədə birinci oxunuşda ətraflı məlumat verildi, onun əhəmiyyəti, mahiyyəti haqqında danışıldı. Mən təkrarçılığa yol vermək istəmirəm. Ancaq bir neçə deputat həmkarım çıxış etdi, müəyyən təkliflər, fikirlər söylədi. Bu dəyişikliklərin predmetinə uyğun olaraq, həmin təkliflər birlikdə araşdırıldı, ümumi razılıq əldə olundu. Dəyişikliklər komitənin iclasında ikinci oxunuş üçün müzakirə olunub. Həmin müddət ərzində komitəyə heç bir rəy və təklif daxil olmayıb. Ona görə də ikinci oxunuş üçün səsə qoyulması məqbuldur. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. İndi isə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, layihəyə sizin komitədə də baxılıb. Buyurun.

**T.Mirkişili.** Hörmətli xanım sədr, həmkarım hörmətli Tahir müəllimin də qeyd etdiyi kimi, biz birinci oxunuş zamanı qanun layihələri haqqında kifayət qədər məlumat vermişdik. 9-cu məsələdə edilən dəyişiklik də 7-ci və 8-ci məsələlərdə olan dəyişikliklərdən irəli gəlir, həmin tələb olunan sənədin rüsumunu, eyni zamanda, onun nəzarət mexanizmini özündə ehtiva edir. Komitənin rəyi müsbətdir. İkinci oxunuşda qəbul olunmasını vacib sayırıq. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur, qanun layihəsi əsas kimi qəbul edilməlidir. Birinci, 7-ci məsələdəki qanun layihəsini biz əsas kimi qəbul etməliyik. Səsə qoyuram, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda əsas kimi qəbul edildi.

8-ci məsələdəki qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda əsas kimi qəbul edildi.

İndi isə 9-cu məsələdəki qanun layihəsini səsə qoyuram. Münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi də ikinci oxunuşda əsas kimi qəbul edildi.

Müzakirələrə keçirik. Təklif var, 5 dəqiqəyə keçilsin.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, reqlamentə riayət edin. Vüqar Bayramov, buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də ikinci oxunuşun tələblərinə uyğun olaraq, bir sıra təkliflərimi təqdim etmək istəyirəm. Əvvəla, “Tütün və tütün məmulatı haqqında” Qanuna edilən dəyişikliklərlə bağlı 4.0.5-ci maddədə təklif edərdim ki, “reyestr” sözündən öncə “elektron” sözü əlavə olunsun, yəni “elektron reyestr” yazılsın. Çünki bütün hallarda reyestrin elektronlaşması və elektron reyestrin tətbiq edilməsi, müraciətlərin elektron olaraq qəbul edilməsi vacibdir.

4.0.6-1-ci maddədə yerli tütün xammalın istifadəsi ilə bağlı limitlər müəyyənləşdirilib. Amma nəzərə alaq ki, dünya praktikasında daha çox idxalla bağlı limitlər müəyyənləşdirilir. Çünki yerli istehsal fərqli səbəblərdən dəyişə bilər. Ona görə təklif edərdim ki, bu maddədə yerli xammalla bağlı deyil, idxalla bağlı limitlər müəyyənləşdirilsin. Nəticədə bu, artıq idxaldan asılılığın minimallaşdırılmasına və daha çox yerli məhsullardan istifadəyə imkan yarada bilər.

4-1.2-ci maddədə yenə müraciətin elektron müraciət olaraq qeyd olunmasını təklif edərdim. Çünki bütün hallarda bu prosesin elektronlaşması açıq hökumət prinsiplərindən istifadə baxımından çox vacibdir.

4-1.3-cü maddədə dövlət rüsumu ilə bağlı əlavə var. O, "Dövlət rüsumu haqqında" Qanunla tənzimlənib. "Dövlət rüsumu haqqında" Qanun bizim komitədə müzakirə olunmuşdu. Mən o zaman da təklif etdim. Burada rüsumla bağlı tələb var, amma rüsumun məbləği "Dövlət rüsumu haqqında" Qanunla müəyyənləşir. Həmin rüsum 150 manatdır. Düşünürəm ki, kifayət qədər böyük məbləğdir. Çünki burada reyestrdən, çıxarışdan söhbət gedir. Praktiki olaraq elektron reyestrdən çıxarışla bağlı sahibkar tərəfindən 150 manatın ödənilməsi məqsədəuyğun hesab edilə bilməz. Çünki dünya praktikası göstərir ki, belə çıxarışlar artıq elektronlaşıb. Hətta kağız formada çıxarışlardan istifadə olunmur. Ona görə də mən məhz bu maddəyə uyğun olaraq, "Dövlət rüsumu haqqında" Qanuna baxılmasını və məbləğin dəyişdirilməsini təklif edərdim.

4-1.5-ci maddədə "vergi sirri" anlayışından istifadə olunur. Ümumiyyətlə, dünya praktikasında "vergi sirri" anlayışı yoxdur. Bu gün inkişaf etmiş ölkələrdə, o cümlədən qardaş Türkiyədə şirkətlərin ödədiyi vergilər

rəsmi qəzetlərdə çap olunur. Yəni şirkət və bütövlükdə sahibkarlıq subyektlərinin şəffaflığı baxımından onun ödədiyi vergi və vergi məbləği artıq əksər inkişaf etmiş ölkələrdə ictimaiyyətə təqdim olunur. Ona görə də “vergi sirri” anlayışının çıxarılmasını təklif edərdim. Çünki bütün hallarda kommersiya sirri ola bilər, amma hansısa bir sahibkarlıq subyektinin ödədiyi vergi şəffaflıq hesabatı baxımından heç bir halda sirr olaraq təqdim edilə bilməz.

10.2.1-ci maddədə, – bu, birinci oxunuşda da müzakirə olunub, – 34 milyon manatlıq investisiya tələbinin müəyyənləşdirilməsi. Ümumiyyətlə, dünya praktikasında investisiya ilə bağlı tələblər olmur, məhsulun keyfiyyəti ilə bağlı tələblər olur. Ona görə mən tələblər bölməsində, yəni 10-cu maddədə keyfiyyətlə bağlı tələblərin müəyyənləşdirilməsinin tərəfdarıyam. Hörmətli Tahir müəllimdən də xahiş edərdim ki, müvafiq dövlət qurumu tərəfindən 34 milyon manatın necə hesablanması, –düzdür, bununla bağlı mətbuatda məlumatlar var, – daha dəqiq necə hesablanması və hansı praktikadan istifadə edilməsi ilə bağlı arayış təqdim olunsun. Çünki bu, keyfiyyətlə bağlı standart deyil.

14.2-1.1-ci maddədə birillik fəaliyyət tələbi var. Bu, əslində, sektora yeni sahibkarların daxil olmasını əngəlləyəcək bir maddədir. Ona görə təklif edərdim ki, bu maddə çıxarılsın. Çünki bütün hallarda sahibkar tütün məmulatlarının idxalı və ixracı ilə məşğul olmaq istəyirsə və yeni fəaliyyətə başlamış sahibkardırsa, o zaman həmin sahibkarlıq subyekti üçün birillik fəaliyyətlə bağlı limitin müəyyənləşdirilməsi arzu olunan deyil.

Çox qısa olaraq digər “Qida təhlükəsizliyi haqqında” Qanunun 24.1-2.1-ci maddəsində 100 min dekalitr rəqəminə baxılmasını və azaldılmasını təklif edərdim. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar müəllim, bunları komitədə təqdim etmisiniz? Tahir müəllim, təqdim olunub?

**V.Bayramov.** Qeyd etdiklərim bizim komitə ilə bağlı deyil. Bizdə “Dövlət rüsumu haqqında” Qanun müzakirə olunmuşdu. Orada mən fikirlərimi demişdim. Bu, Aqrar siyasət komitəsində müzakirə olunan məsələlərdir.

**Sədrlik edən.** Sizin komitədə bu layihəyə baxılıb, ona görə soruşuram. Fazil Mustafa. Buyurun.

**F.Mustafa.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də, təbii ki, bu dəyişiklikləri dəstəkləyəcəyəm. Bu, yerli istehsalın inkişafına xidmət edən bir prosesdir. Burada istər tütün məmulatları, istərsə də alkoqollu içkilərlə bağlı məsələdə müəyyən dərəcədə idxalın stimullaşdırılması və yerli məhsulların ixracına kömək edə biləcək səviyyədə imkan yaradılması nəzərdə tutulur. İkinci oxunuşun tələbinə uyğun olaraq, 10.2-ci maddədə nəzərdə tutulan tütün məmulatlarının istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyata alınması üçün bir şərt var ki, bu da 34 milyon manatdan az olmayan məbləğdə investisiyanın qoyulmasıdır. Qanunvericilikdə bu məbləğin bu formada göstərilməsi, açığı, bir az anlaşılmır. Çünki şərtlər istənilən vaxt dəyişə bilər. Burada müəyyən dərəcədə yuvarlaq imkanlar tanınmalıdır ki, konkret rəqəm ətrafında məsələ formalaşmasın. Çünki bizə verilən arayışda geniş izah ediblər ki, ayrılan avadanlıqların, qoyulan investisiyaların, laboratoriyanın yaranmasının əsas məbləği təqribən 34 milyon manat civarında olur. Amma bu iqtisadi analiz hər halda qanunvericilikdə bu formada təsbit olunmamalıdır. Mənim fikrimcə, burada imkan yaratmaq lazımdır ki, müvafiq qurum özü müəyyən etsin, həqiqətən, bu adamın bu sahəyə girməyə imkanı var, ya yoxdur. Konkret rəqəm

onun işini məhdudlaşdıracaq. Yerli sahibkar üçün bu, böyük problem yaradacaq.

Digər tərəfdən, burada 10.2.3-cü maddədə nəzərdə tutulan obyektə dair, fəaliyyətini həyata keçirən obyektə dair mülkiyyət, istifadə və icarə hüququnu təsdiq edən sənədin olması göstərilir. Məncə, biz bu kimi sahələrdə mülkiyyət hüququ üzərində daha çox israr etməliyik. Çünki kim isə hansı isə bir sahəyə investisiya yatırmaq istəyirsə, xüsusilə də bu, xarici hüquqi şəxs də ola bilər. Biz təkcə daxili istehsalı stimullaşdırmaqla kifayətlənməməliyik. Bizə keyfiyyət lazımdır və onda artıq mülkiyyət hüququnu genişləndirməsək, bu sahəyə böyük investisiya, milyonlarca manat vəsait yatırmağa maraqlı olmayacaqlar. O baxımdan da burada daha çox mülkiyyət hüququna istinad edilməsinin tərəfdarıyıq. Yaxud belə bir istehsalla məşğul olan şəxslər üçün özəlləşmə şərtlərinin yumşaldılmasının tərəfdarıyıq. Çünki bu olmadıqda, – bu sahələr, xüsusilə tütünçülüklə bağlı sahə çox ağır, çox riskli sahədir, – bura giriş seçimində bir sıra problemlər yaranacaq, sahibkarlar bu sahəyə gəlməyə risk etməyəcəklər.

Üçüncü. Hörmətli xanım sədr, nəhayət, bu sənəddə bizə təqdim olunan arayış var. Mən hesab edirəm ki, bu, indiyə qədər rastlaşdığım ən mükəmməl arayışlardan biridir. Buna görə Tahir müəllimə komitə sədri kimi təşəkkür edirəm. Yəni burada diqqətimi nə cəlb etdi? Geniş arayış olmaqla yanaşı, əsaslandırma olduqca peşəkar səviyyədə aparılıb, məsələn, Türkiyədəki vəziyyətlə müqayisə olunub. Biz tütünçülük sahəsində və ya alkoqollu içkilər sahəsində mütəxəssis deyilik. Hər halda təqdim olunan arayışın bizə – əksər millət vəkillərinə çox böyük köməyi var. 5-6 nəfər millət vəkili istisna ola bilər ki, bu sahədə kifayət qədər təcrübəsi var. Başqa ölkələrin nümunələrini

təqdim etmək, xüsusilə Türkiyə ilə, Rusiya ilə, Avropa ölkələri ilə bəzi müqayisələrin edilməsi daha aydın fikir formalaşdıra bilər. Bu baxımdan da mən bu arayışı xüsusi vurğulamaq istərdim və bir daha qeyd edirəm ki, bizə təqdim olunan bütün sənədlərdə, xüsusilə də bu cür ixtisaslaşma tələb edən, anlaşılması üçün müəyyən bilgiyə sahib olmaq tələb olunan bu kimi qanun layihələrində belə müqayisəli arayışların verilməsi ümumi işimizə faydalı olardı. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Arayışın yazılmasında şöbənin də əməyi var. Tahir müəllim də çox sağ olsun ki, bu işə rəhbərlik edib. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar. İkinci oxunuşun tələbinə uyğun olaraq, sırf hüquqi bir məsələni diqqətinizə çatdırmaq istəyirəm. 4-1-ci maddədə "qeydiyyatın yenidən rəsmiləşməsi" ifadəsi var. Bildiyiniz kimi, subyektlərin qeydiyyat məsələləri "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunla tənzimlənir. Amma həmin qanunda qeydiyyatın yenidən rəsmiləşməsi kimi bir anlayış yoxdur. Bu mənada hesab edirəm ki, bu məsələnin sonradan açıq qalmaması üçün, yaxud hüquqi problemlərə yol açmaması üçün məhz qeyd olunan qanunun fonunda bir daha təhlil olunmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm, hörmətli sədr. Birinci oxunuşda mən qeyd etmişdim ki, bu qanun layihəsi proteksionizm və inhisarçılığın yaradılmasına xidmət edən bir qanundur. Hörmətli sədr, bizim mövcud qanunvericiliyə görə, Konstitusiya qanunları əgər Konstitusiyanın əsas mətni ilə ziddiyyət təşkil etmirsə, Konstitusiyanın tərkibi

hesab olunur. “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununda qeyd olunur ki, qanun layihələri sui-istifadəyə dair ekspertizadan keçirilməlidir.

Mən ilk öncə təşəkkür edirəm, burada yeni kompüterlər quraşdırılıb və bundan sonra imkan olacaq ki, millət vəkilləri dərhal baxsınlar və müqayisə apara bilsinlər.

64.1.3-cü maddədə qeyd olunur ki, şəxsə məxsus hüquqların həyata keçirilməsi üçün ona lazım olduğundan daha yüksək tələblərin irəli sürülməsi sui-istifadəyə yol açan haldır. Bu, birbaşa Konstitusiyanın tələbidir.

Burada – 10.2.1-ci maddədə qeyd olunur ki, avadanlıqların alınmasına 34 milyon manat pul tələb olunmalıdır, bunun üçün hələ torpaq sahəsi alınmalıdır, elektrik, qaz, su xətləri çəkilməlidir və sair. Bu o deməkdir ki, çox az sayda sahibkarlar bu işi görə bilərlər. Yəni tutaq ki, mənim bu istehsalla məşğul olmaq hüququm var, amma bu hüquqlar Konstitusiya qanununa zidd olaraq məhdudlaşdırılır.

Bundan başqa, 64.1.5-ci maddədə hüquqların həcminin əsassız dəyişdirilməsi göstərilir. 64.5-ci maddədə qeyd olunur ki, normativ hüquqi aktda fiziki və hüquqi şəxslərin öz hüquqlarını həyata keçirməsi və ya vəzifələrini yerinə yetirməsi üçün zəruri olan tələblər (şərtlər) ağır və ya çətin yerinə yetirilən tələblər və şərtlər ola bilməz. Amma biz görürük ki, bu qanunda “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununa zidd olan çətin tələblər qoyulub.

67-ci maddədə qeyd olunur ki, sui-istifadəyə məruz qalmanın tipik təzahürləri hansılardır və burada mənafelər balansının pozulması, yalnız bir qrup subyekt üçün imtiyazların nəzərdə tutulması göstərilir. Biz qanunun 10.2-2.1-ci maddəsində qeyd edirik ki, “ən azı bir il tütün

məmulatı istehsal edən hüquqi və yaxud fiziki şəxs onun idxalını həyata keçirə bilir”. Bu, o deməkdir ki, sən istehsal edirsənsə, onun idxalı ilə niyə məşğul olmalısan? Bu, qiymətin bir əldə cəmləşdirilməsidir və sırf inhisarçılıq deməkdir.

Mən bilmədim, Fazil müəllim o arayışın nəyinə vurulub. O arayışda qeyd olunur ki, Türkiyədə məhsul istehsalının həcminə görə icazə verilir. Bu qanunda qeyd edilir ki, imtiyazlar nəzərdə tutulur. Niyə imtiyazlar nəzərdə tutulur? Qanunun bu tələbi, yəni 34 milyon manatlıq avadanlıqların alınması yeni fəaliyyətə başlayanlara şamil olunur. Biz burada qeyri-bərabərlik yaradırıq. Misal üçün, kimsə əvvəllər kiçik bir müəssisə yaradıbsa, ondan tələb olunmur ki, sən də get, istehsalın həcmini böyüt. Özü də istehsalın həcmi ilə bağlı heç bir tələb yoxdur. Türkiyə burada misal gətirildi. Tutaq ki, köhnə şirkətlər məhsul istehsal etmədilər, ancaq idxalla məşğul olmağa başladılar. Başqa birisi də 34 milyon manat verib avadanlıqlar aldı, ondan sonra xaricdən ölkəyə ucuz siqaretlər idxal etməyə başladı və beləliklə, yeni yaradılmış müəssisəni bankrot etdi.

Hörmətli sədr, mən onu qeyd etmək istəyirəm ki, bu, açıqdan-açığa inhisarçılıq yaradır. Onsuz da, biz bilirik ki, Azərbaycanda kənar şəxslər ölkəyə siqaret gətirə bilmirlər. Bu, bunun qanun müstəvisində təsdiq olunmasıdır.

Mən istəyərdim ki, Azərbaycanda heç kim siqaret çəkməsin, biz heç vaxt tütün və tütün məmulatları istehsal etməyək. Burada keçən dəfə Tahir müəllim qeyd etdi, “vaping” deyilən elektron siqaretlər ləğv olunsun. Mən kiçik bir araşdırma apardım. İndi bu kompüterlər qoyulub, əgər internetə qoşulmuş olsaydılar, hər biriniz yoxlayardınız. “Vaping”lər sağlamlıq baxımından daha az zərərlidirlər. Bax, Britaniyanın www.nhs.uk saytı var, yəni

"National Health Service", yazın, baxın. Orada deyirlər ki, kimsə siqaretdən imtina edə bilmirsə, zəif iradəlidirsə, heç olmasa, elektron siqaretdən istifadə etsin. Amma biz deyirik, elektron siqareti ləğv edək ki, hamı tütün çəksin. Bu gün, çox təəssüf ki, supermarketlərdə qızlar əllərində alıcılara siqaret təklif edirlər...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Vaxt verin.

**Q.Həsənquliyev.** Çox təşəkkür edirəm, hörmətli sədr. Bu, çox həssas məsələdir. Mən keçən dəfə məsələ qaldırdım ki, qarşıdan COP29 tədbiri gəlir. Biz burada deyirik ki, ekologiyanı sağlamlaşdıraq. Bu, insanların həyatı üçün, sağlamlığı üçün, gələcək nəsillərimiz üçün lazımdır.

"Reklam haqqında" Qanunla siqaret reklamı qadağandır. Vitrinlərdən kənarda istənilən məhsulun yerləşdirilməsi reklam hesab olunur. Yəni bu, qanunda belədir. Məktəblərin yaxınlığında köşklər var. Bütün vitrinlərə siqaretlər düzülüb, özü də üzərində "insan üçün zərərlidir" yazılan hissəsi qiymətlə örtülüb. Mən dedim ki, lazımdırsa, Milli Məclis olaraq təşəbbüslə çıxış edək, siqaretin satışı ilə məşğul olanlara xərac ödəyək, heç olmasa, bu COP29 dövründə – 3-4 ay ərzində ölkədə siqaretin reklamını yığışdırsınlar. Bütün mətbuat yazdı ki, Milli Məclisdə qanun qəbul olunur, bu, insanların sağlamlığı üçündür və sair. Yəni ən pis işləri də yaxşı şüarlar adı altında görmək lazım deyil.

Mən hesab edirəm ki, bu qanun layihəsi qaytarılmalıdır, mütləq ekspertizadan keçirilməlidir və sonra biz bunu üçüncü oxunuşda müzakirə etməliyik. Hamınıza diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sabir Rüstəmxanlı. Buyurun, Sabir müəllim.

**S.Rüstəmxanlı**. Təşəkkür edirəm, hörmətli sədr. Təqdim olunan qanun layihələri və dəyişikliklər son dərəcə mühüm məsələləri əhatə edir. Mən qısaca daha çox qida təhlükəsizliyi məsələsi ilə bağlı danışmaq istəyirəm. Məndən əvvəlki həmkarım siqaret satışı ilə bağlı bir məsələyə toxundu. Vaxtı ikən biz də məsələ qaldırmışdıq ki, Bakıda çox müasir mətbuat köşklərinə ehtiyac var. Mətbuat köşkləri, doğrudan da, dəyişildi. Müəyyən adamların da, görünür, marağı var idi. Çünki onlar bir əldə toplaşırdı, monopoliyadır. Kimin idisə, onu aydınlaşdırmaq olar. Bu köşklər çox gözəl dizaynda idi. Amma bir neçə müddətdən sonra bunlar qəzet satmaq əvəzinə hamısı minimarket oldu. Bu gün Azərbaycanda küçələrdə köşklərin üzərində "Mətbuat köşkü", "Qəzet köşkü" yazılıb, amma hamısı minimarketlərdir, saqqız, siqaretin bütün növləri – hər şey satılır. Yaxşı, bu niyə təyinatı üzrə istifadə olunmur? Əgər təyinatı üzrə istifadə olunmursa, onda onlar yığışdırılsın. Nəyə lazımdır? Adamlar siqareti mağazalardan da ala bilərlər. Yəni xırdavat satılmaq üçün Bakının küçələrində qəzet adına, mətbuat adına bu köşklərin qoyulmasına niyə hamı göz yumur? Bu, birinci məsələdir.

İkinci məsələ isə qida təhlükəsizliyi ilə bağlıdır. Burada göstərilir ki, arağın illik minimum istehsal həcmi 100 min dekalitr olmasa, bu müəssisələr qeydiyyata alınmayacaq və sair. Mən bilmirəm, o, indi necədir, hansı rəqəmlərdən söhbət gedir. Amma burada müşahidə etdiyim başqa bir məsələni demək istəyirəm. Bilirsiniz, böyük supermarketlər var, xüsusən rayon yollarında tikilib. Boş sahələrdir, stadion boyda böyük supermarketlər tikiblər. Girirsən içərisinə, 10–20 deyil, yüzlərcə müxtəlif araq növü var. Burada dünyanın bütün əndrəbadi adlarında, dəbdə olan

markalarda araqlar satılır. Hamısı Azərbaycanda sexlərdə qeyri-qanuni yollarla istehsal olunur, üstündə də dəbdəbəli adlar yazılıb. Amma arağın qiyməti 3 manat, 4 manat, 5 manat, 6 manatdır. Hamı görür ki, bu, saxtadır, amma satılır. Ehtiyacı olan insanlar, az maaş alan adamlar gedib alır və burada zəhərlənmə bir yana... Bir neçə yaxın dostumu vaxtı ikən İrandan gələn texniki spirtdən düzələn arağa görə itirmişdim. Bir neçə dostum – cavan oğlanlar bir ay oruc tutublar, orucluqdan sonra, – çox gülməli bir şeydir, – gedib o texniki spirtdən düzələn arağı alıb acgözlüklə içiblər, sonra da həyatlarını itiriblər. Yaxşı, bunu kim istehsal edir? Niyə buna nəzarət yoxdur? O lisenziyaları kim verir? Əgər Azərbaycan araq istehsalında, içki istehsalında bu qədər məşhurdursa, onda niyə kənara çıxa bilmirik? Vaxtı ikən Azərbaycanın “Ağdam” şərabı Rusiyanın hər tərəfində satılırdı. Uşaqlar zarafat edirdilər ki, “Ağdam” şərabı ilə biz Rusiyanı tezliklə işğal edəcəyik. İndi o vaxtlar keçdi.

Azərbaycanın bu gün yenə şərabları, içkiləri var. Ən yaxın münasibətdə olduğumuz Şimali Qafqazda azərbaycanlılar kütləvi surətdə istirahət edirlər. Orada gürcü, erməni içkiləri satılır, azərbaycanlılar isə öz içkilərini tapa bilmirlər. Yaxşı, bir halda ki, münasibət var, azərbaycanlıların pulu hesabına o sanatoriyalar fəaliyyət göstərirlər, amma bizim içkilərimiz ora yol tapmır. İdxal yoxdursa, kənara çıxara bilmiriksə, onda ya keyfiyyət aşağıdır, ya da bu işi qura bilməmişik. Bəs niyə bu qədər mal istehsal edirik? Deməli, hamısı öz millətimizin səhhətinin pozulmasına görədir. Ümumiyyətlə, Azərbaycanda bu qədər araq istehsalına ehtiyac var? 2024-cü ildə 20 min dekalitr araq istehsal olunacaq, 2030-cu ildə 80 min. 4 dəfə artıq. Bizim əhalimiz o vaxta kimi 4 dəfə artacaq? Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Mirkişili. Tahir müəllim, buyurun.

**T.Mirkişili**. Çox sağ olun, Sahibə xanım. Mən burada hörmətli həmkarım Vüqar müəllimin dediyi iki məsələyə qısa münasibət bildirmək istəyirəm. Bu məsələ burada tez-tez qaldırıldığına görə, istəyirəm, bir daha aydınlıq gətirəm. Birincisi, bəzən belə yanlış bir təsəvvür yaranır ki, elektron sənəd pulsuz başa gəlir. Yəni düşünülür ki, əgər dövlət indiyə qədər sənədi çap edib verirdisə və onun rüsumu, məsələn, 100 manat idisə, elektron sənədin rüsumu isə 50 manat olmalıdır. Belə bir yanaşma var. Amma təcrübə göstərir ki, bu gün elektronlaşma prosesi kağızla informasiyanın verilməsi prosesindən qat-qat baha başa gəlir. Yəni bu gün hər bir deputatın önündə yeni planşetlər qoyulub. Sahibə xanım, Sizə təşəkkürümüzü bildiririk.

Zatən Milli Məclisin son VI çağırışı zamanı etdiyi rəqəmsallaşma bəlkə də deputat tərəfdən baxanda bu, rahatdır, sənədlər elektron formadadır, biz hər şeyi ekranda görürük. Amma bunun arxasında bizim Milli Məclis Aparatının, xüsusən rəhbərliyin çox böyük əməyi, amma, eyni zamanda, böyük dövlət vəsaiti durur. Yəni bunların, sadəcə, "elektron sənəd olduğu zaman ucuz olmalıdır" kimi məntiqini doğru saymırıq. Bu, bir neçə dəfə səslənib və qeyd etmək istəyirəm ki, elektron sistemin nəinki yaradılması, eyni zamanda, onun saxlanılması da kifayət qədər xərc tələb edir. Ona görə "hökumət elektronlaşdıqca rüsumlar azalacaq" kimi yanaşma doğru deyil, dünyada belə bir şey yoxdur. Elektronlaşmanın əsas məqsədi istifadəçilərin daha rahat, daha sürətli istifadəsini təmin etməkdir. Bununla yanaşı, onun ətraf mühiti qorumaq kimi mühüm bir missiyası da var.

İkincisi, 150 manatla bağlı biz komitədə də demişdik.

Vüqar müəllim indi burada söylədiyinə görə özümə borc bilirəm ki, bir daha deyim. Mən şəxsən düşünürəm ki, 34 milyon manat minimum vəsait qoyan iri sahibkar üçün 150 manat dövlət rüsumu ödəmək böyük bir məbləğ deyil. Ona görə hesab etmirəm ki, bunu aşağı salmaq lazımdır. Dünyanın əksər ölkələrində rüsumların həddi dəfələrlə çoxdur. Düşünürəm ki, 150 manat rüsumun təyin edilməsi sahibkarlara Azərbaycan hökumətinin dəstəyi kimi izah edilə bilər. Diqqətinizə görə minnətdaram, çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Qüdrət müəllim, planşetlərlə bağlı dediniz ki, indi internet olsa idi... Təhlükəsizlik məsələləri var, biz onu edə bilmirik. Bunların əsas missiyası odur ki, qanun layihələrinin hamısı olsun, istənilən zaman digər qanunlara da baxasız. Hələ bunların üzərində iş gedir. Tahir müəllimin sözünə qüvvət, görünməyən işlər var və bunu da Milli Məclisin informasiya məsələləri ilə məşğul olan şöbəsi edir. Bu, bütün Aparatın birgə işidir. Tahir müəllim, Sizin sözünüz var, buyurun. Tahir Rzayev.

**T.Rzayev**. Hörmətli sədr, burada müəyyən fikirlər söylənildi. Mən elə bilirəm, hörmətli Tahir müəllimlə birlikdə bunu işçi qrupunda həll edə bilərik. Ona görə də bu məsələləri biz aydınlaşdırarıq. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, biz indi qanun layihələrinin səsvermə proseduruna keçirik. Bu qanun layihələrinə əvvəlcə maddələr üzrə, sonra isə bütövlükdə münasibət bildirməliyik. 7-ci məsələdə, yəni "Tütün və tütün məmulatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində iki maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 2 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.

İndi 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə qəbul edildi.

Qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

8-ci məsələdə olan qanun layihəsinin səsverməsinə keçirik. “Qida təhlükəsizliyi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də iki maddədən

ibarətdir. 1-ci maddəyə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi, çox sağ olun.

Mən 2-ci maddəni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi, çox sağ olun.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

9-cu məsələnin səsvermə proseduruna keçirik. Vergi və Gömrük məcəllələrində və iki qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsi dörd maddədən ibarətdir. Hörmətli həmkarlar, iki-iki səsə qoyacağam. 1-ci və 2-ci maddələrə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

1-ci və 2-ci maddələr qəbul edildi.

3-cü və 4-cü maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

3-cü və 4-cü maddələr qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, əslində, fasilə vaxtıdır. Təklif var, fasiləsiz işləyək.

Hörmətli həmkarlar, növbəti, 10-cu məsələyə keçirik. Bu, "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb və bu gün komitə adından məlumatı bizə hörmətli Mahir Abbaszadə verəcək. Mahir müəllim, buyurun.

**M.Abbaszadə**, *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox sağ olun, xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Layihədə gömrük orqanları xidmətinin keyfiyyətinin yüksəldilməsi, gömrük orqanları əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, onların yeni qulluq yerinə keçməsi ilə bağlı kompensasiyaların ödənilməsi, habelə qulluq yerinə keçmə ilə bağlı yaşayış yerinin, əməkdaşların mənzil kirayəsi üçün pul kompensasiyalarının verilməsi nəzərdə tutulur. Belə bir analoji hal, oxşar mexanizmlər dövlət qulluğunun digər xüsusi növlərində, xidmətkeçməni tənzimləyən qanunvericilik aktlarında tətbiq edilmişdir və praktikada uğurla həyata keçirilməkdədir. Hörmətli xanım sədr, qanunun birinci oxunuşundan sonra hörmətli millət vəkillərimizdən komitəmizə heç bir irad və təklif daxil olmamışdır. Qanunun ikinci oxunuşda da olduğu kimi səsə qoyul-

masını Sizdən xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Mahir müəllim. Hörmətli həmkarlar, qanun layihəsini ikinci oxunuşda əsas kimi qəbul etməliyik. Xahiş edirəm, bu qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur, ona görə də mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Bu qanun layihəsi iki maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Hörmətli həmkarlar, gündəliyin növbəti iki məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə bir-birinə yaxındır. 11-ci məsələ “Dövlət qulluğu haqqında” Qanunda dəyişiklik edilməsi barədə, 12-ci məsələ isə “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə qanun layihələridir. Təklif edirəm, yenə də əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək. Qeyd edim ki, hər iki layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Komitənin üzvü hörmətli Nizami Səfərov bizə bu haqda məlumat verəcək. Nizami müəllim, buyurun.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Gündəliyin 11-ci və 12-ci məsələləri dövlət başçısının 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın icrası ilə bağlı hazırlanmışdır. Müzakirələr zamanı hörmətli deputatlar Qüdrət Həsənquliyevin, Aydın Mirzəzadənin və Etibar Əliyevin suallarına aydınlıq gətirilmişdir. Mətndə hər hansı bir dəyişiklik olmamışdır.

Eyni yanaşma gündəliyin 12-ci məsələsi olan "Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də də özünü büruzə vermişdir. Layihədə hər hansı bir dəyişiklik olmamışdır və heç bir təklif irəli sürülməmişdir. Hər iki layihənin ikinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, layihəni əsas kimi qəbul etməliyik. Xatırladım ki, ikinci oxunuşdur. Ona görə xahiş edirəm, 11-ci məsələdəki qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə 12-ci məsələdəki qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi. Çox sağ olun.

Müzakirələrə keçirik, yazılan var. Ziyafət Əsgərov. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Hörmətli Nizami müəllim, "Dövlət qulluğu haqqında" Qanuna edilən dəyişikliklərlə bağlı 11.1.1.4-cü maddədə Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparatının rəhbəri göstərilir. Xahiş edirəm, bu məsələyə fikir verəsiniz. Bu, Konstitusiyanın 114-cü maddəsinin I hissəsinə uyğunlaşdırılmalıdır. Bu nə ilə bağlıdır?

Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradıb. Deməli, burada və eyni zamanda, Konstitusiyanın 7-ci maddəsinə görə, Azərbaycanda icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə məxsusdur. Yəni, ümumiyyətlə, Azərbaycan Prezidentinin dövlət başçısı kimi üç səlahiyyəti var: dövlət başçısı kimi, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi, ali icra hakimiyyətinin başçısı kimi. Ona görə xahiş edirəm, Konstitusiyanın 7-ci və 114-cü

maddələrini nəzərə alaraq dediyim bu maddənin Konstitusiyanın həmin maddələrinə uyğunlaşdırılmasını nəzərə alasınız. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Ziyafət müəllim. Nizami müəllim, görürəm, danışmaq istəyirsiniz. Buyurun.

**N.Səfərov**. Hörmətli deputatımız Ziyafət müəllim Əsgərov bu məsələ ilə bağlı işçi qaydasında da fikrini bildirmişdir və hazırda bu məsələ qanunvericilik təşəbbüsü subyektinin nümayəndələrinin diqqətinə çatdırılıb və onlardan cavab gözlənilir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, mən qanun layihəsinin maddələr üzrə səsverməsinə keçirəm. "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində iki maddə var. 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

12-ci məsələnin səsverməsinə keçirik. Bu, "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihə dörd maddədən ibarətdir. İki-iki səsə qoyuram. Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti, 13-cü məsələyə keçirik. Bu, “Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları”nda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Vüqar İskəndərova söz verirəm. Vüqar müəllim, buyurun.

**V.İskəndərov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli Sahibə xanım, hörmətli deputatlar, media mənsubları. Qanun layihəsi haqqında birinci oxunuşda

geniş məlumat verilib. İki dərman preparatının reseptsiz buraxılmasına dair olan layihədir. Bu müddət ərzində layihə ilə bağlı komitəyə heç bir təklif, müraciət daxil olmamışdır. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Diqqətiniz üçün minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxışa heç kim yazılmayıb. Ona görə də mən maddələr üzrə səsverməyə keçəcəyəm. Hörmətli həmkarlar, bu layihədə iki maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verմədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

Hörmətli həmkarlar, indi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

14-cü məsələyə keçirik. Bu, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli sədr. Əziz həmkarlar, məsələ barədə birinci oxunuşda geniş məlumat verilib. Hü-

quq siyasəti və dövlət quruculuğu komitəsinin məruzə dairəsinə daxil olan məsələlər üzrə, heç bir mahiyyət üzrə təklif daxil olmadığı üçün cari variantın səsə qoyulmasını xahiş edirik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Bəhruz müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə daha iki komitədə – Ailə, qadın və uşaq məsələləri komitəsində və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Ailə, qadın və uşaq məsələləri komitəsinin rəyini bildirmək üçün, Jalə xanım, mən yenə Sizə söz verirəm. Buyurun.

**J.Əliyeva**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media mənsubları. Qanun layihəsi komitəmizdə müzakirə edilmişdir. Əlavə rəy və təkliflər olmamışdır. Layihə ikinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Məlumatı nəzərə almağınızı xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin məlumatını, Tahir müəllim, özünüz verəcəksiniz. Tahir Mirkişili. Buyurun.

**T.Mirkişili.** Hörmətli xanım sədr, bizim komitənin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Mən səsverməyə keçəcəyəm. Layihə üç maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə qəbul edildi.

İndi 3-cü maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 3-cü maddə qəbul edildi.

İndi isə hörmətli həmkarlar, mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti iki məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olmuşdur, bir-birinə mahiyyətcə yaxındır. 15-ci məsələ "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 16-cı məsələ isə Əmək Məcəlləsində və Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihələridir. Hörmətli həmkarlar, təklif edirəm, əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək. Layihələrə iki komitədə – Hüquq siyasəti və dövlət quruculuğu komitəsində və Əmək və sosial siyasət komitəsində baxılmışdır. Bəhruz müəllim, xahiş edirəm, Siz 15-ci məsələyə dair məlumat verin, 16-cı məsələ barəsində isə komitənin rəyini bildirin. Buyurun, Bəhruz Məhərrəmov.

**B.Məhərrəmov.** Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar. Elektron qeydiyyat prosedurunun həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətlərin daha təkmil formada tənzimlənməsini nəzərdə tutan bu qanun layihəsi

barədə birinci oxunuşda geniş məlumat verilib. Mahiyyəti üzrə heç bir təklif daxil olmadığı üçün səsə qoyulmasını xahiş edirik. 16-cı məsələ üzrə isə komitəmizin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Bəhruz müəllim. Musa müəllim, 16-cı məsələyə Əmək və sosial siyasət komitəsində baxılıb. Xahiş edirəm, məlumat verin.

**M.Quliyev**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Əmək Məcəlləsinə və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə təklif olunan dəyişikliklər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa təklif olunan dəyişikliklərə uyğunlaşma xarakteri daşıyır. Dəyişikliklərin mahiyyəti barədə birinci oxunuşda ətraflı məlumat vermişik. Komitəyə heç bir irad və təklif daxil olmayıb. Komitənin rəyi müsbətdir. Xahiş edirik, qanun layihələrini ikinci oxunuşda səsə qoyasınız. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Hörmətli həmkarlar, biz bu qanun layihələrini əsas kimi qəbul etməliyik. Ona görə xahiş edirəm, 15-ci məsələdəki qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə 16-cı məsələdəki qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də əsas kimi qəbul edildi.

Yazılan var. Azay Quliyev. Buyurun, Azay müəllim.

**A.Quliyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Hörmətli xanım sədr, bildiyiniz kimi, birinci oxunuş zamanı mən xarici ezamiyyədə olduğuma görə bəzi konseptual məsələlərə münasibət bildirməmişdim. Əgər icazə versəydiniz, kiçik bir məqama toxunardım. Çünki bu gün üçün bu, çox aktual məsələdir. Söhbət hüquqi şəxslərin fəaliyyətinin şəffaflaşdırılmasından və hesabatlılığın artırılmasından gedir. Bilirsiniz ki, bu, Azərbaycan üçün, ümumiyyətlə, dünyanın hər bir ölkəsi üçün çox aktual və vacib bir məsələdir. Mən açıq demək istəyirəm, ABŞ-da və Avropa İttifaqında hüquqi şəxslərin, xüsusilə qeyri-hökumət təşkilatlarının fəaliyyətinin şəffaflaşdırılmasına, onların hesabatlılığının artırılmasına münasibət heç də adekvat deyil. Bəzi dairələr qeyri-hökumət təşkilatları vasitəsi ilə digər ölkələrin daxili işlərinə müdaxilə etməyə cəhd edirlər. Hörmətli Əli müəllim Hüseynli yaxşı xatırlayar, 2010-cu, 2013–2015-ci illərdə

bu cəhdlər Azərbaycanda da var idi. Biz yaxşı xatırlayırıq, 2013-cü ildə məhz ABŞ-ın maliyyələşdirdiyi Milli Demokratiya İnstitutu vasitəsi ilə bir çox gənc məhz qeyri-qanuni maliyyələşdirilən həmin layihələr çərçivəsində Bakının Fəvvarələr meydanına çıxırdı, bu yolla Azərbaycana müəyyən formada təzyiqlər etməyə çalışırdı.

Bu gün Azərbaycan özünün siyasi müstəqilliyinin və bütövlükdə həyata keçirdiyi siyasətin, mən deyərdim ki, ən güclü, ən qüdrətli dövrünü yaşayır. Bu, həm də o deməkdir ki, Azərbaycana hər hansı bir formada daxildə müdaxilə etmək imkanları yoxdur. Ona görə yoxdur ki, vaxtı ilə biz, hörmətli xanım sədr, Milli Məclis olaraq bu istiqamətdə çox səmərəli addımlar atdıq. Qeyri-hökumət təşkilatlarının fəaliyyətinin şəffaflaşdırılması, onlara verilən qrant vəsaitlərində hesabatlılığın artırılması məsələsini qanunvericilik səviyyəsində həll etdik. Bu gün isə buna dolayısı ilə müdaxilə etmək istəyənlər var. Xaricdən vəsait gətirib Azərbaycanda qeyri-qanuni yollarla xərcləmək istəyənlər var ki, Azərbaycan dövləti bu istiqamətdə, əlbəttə ki, müvafiq addımlar atır.

Hamımız son günlər Gürcüstanda baş verən hadisələri görürük. Gürcüstan parlamenti xarici təsirlərin şəffaflığı və hesabatlılığı haqqında qanun layihəsi qəbul etmək istəyir. Ona hərtərəfli şəkildə hər bir ölkədən, xüsusilə ABŞ və Avropa İttifaqından təzyiqlər edilir. Niyə? Çünki əgər bu proses şəffaflaşarsa, qeyri-hökumət təşkilatlarının, ümumiyyətlə, hüquqi şəxslərin hesabatlılığı artarsa, onlara müdaxilə etmək imkanı azalar. Ona görə də bu cür addımlar, şəffaflıq və hesabatlılıq əmsalının artırılması istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi çox vacib əhəmiyyət kəsb edir.

Təsəvvür edin ki, Vətən müharibəsi dövründə biz, bir

tərəfdən, düşmənlə mübarizə aparırdıq, digər tərəfdən, əgər xarici ölkələrin əlində bu cür imkanlar olsaydı, onda mütləq şəkildə müdaxilə edəcəkdilər və qeyri-hökumət təşkilatları pərdəsi altında bizim bu haqq işimizə təsir etməyə çalışacaqdılar. Ona görə də mən düşünürəm ki, dövlətçilik baxımından, hər bir qurumun fəaliyyətinin şəffaflığının və hesabatlılığının artırılması baxımından bu cür qanun layihələri çox önəmlidir. Əlbəttə, bu, həm də digər hüquqi şəxslərin qeydiyyatının elektronlaşdırılmasını, şəffaflaşdırılmasını özündə ehtiva edir. Hesab edirəm ki, bu da kifayət qədər aktualdır.

Hörmətli xanım sədr, bu qanun layihəsindən istifadə edərək bildirmək istəyirəm ki, Azərbaycan dövlətinin atdığı bütün addımlar qanunvericiliyə, beynəlxalq praktikaya söykənir və heç bir qeyri-hökumət təşkilatının fəaliyyətinə müdaxilə olunmur. Onların şəffaf və açıq şəkildə fəaliyyət göstərməsi üçün dövlət tərəfindən hər cür şərait yaradılıbdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz bu qanun layihələrinin səsverməsinə keçirik. Həmişə olduğu kimi, qanun layihələrinə əvvəlcə maddələr üzrə, sonra isə bütövlükdə səs verəcəyik. 15-ci məsələdə, yəni "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində iki maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

1-ci maddə qəbul edildi.

İndi 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

2-ci maddə qəbul edildi.

İndi isə 15-ci məsələdə olan qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

16-cı məsələnin səsverməsinə keçirik. Əmək Məcəlləsində və Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsində iki maddə var. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 97 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə qəbul edildi.

Qanun layihəsinə bütövlükdə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 17-ci məsələyə keçirik. Bu, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi-

dir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Elnur Allahverdiyevə söz verirəm. Elnur müəllim, buyurun.

**E.Allahverdiyev,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi birinci oxunuşda ətraflı təqdim olunmuşdur. Komitəmizə heç bir irad və təklif daxil olmadığına görə qanun layihəsinin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Elnur müəllim, çox sağ olun. Hörmətli həmkarlar, biz qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Görürəm, çıxış etmək istəyən yoxdur, ona görə qanun layihəsinin maddələr üzrə səsverməsinə keçirik. Bu qanun layihəsi bir maddədən ibarətdir. Xahiş edirəm, həmin maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 18-ci məsələyə keçirik. Bu, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihə birinci oxunuşda müzakirəyə təqdim olunur. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən yenə də Bəhruz müəllimə söz verirəm. Bəhruz müəllim, buyurun, qanun layihəsi haqqında məlumat verin.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi möhtərəm cənab Prezidentin imzası ilə daxil olub və üç fərqli istiqamətdə sadə məqsədlərə xidmət edir.

Birinci dəyişiklik məhdud məsuliyyətli cəmiyyətlərin

fəaliyyətlərində intizamı formalaşdırır. Bilirsiniz ki, qanunvericiliklə cəmiyyətin nizamnamə kapitalı onun kreditorlarının mənafelərinə təminat verən əmlakın minimum miqdarını müəyyənləşdirir. İstər müəssisənin nüfuzu, istərsə də fəaliyyətin uğurunun təməlində olan amillərdən biri kimi bu, çox önəmli məsələdir.

Mülki Məcəllənin 90.2-ci maddəsində bu meyarlar nəzərə alınaraq imperativ tələblər müəyyən olunub ki, nizamnamə kapitalının müəyyən müddətdə ödənilməsi nəzərdə tutulmayıbsa, MMC dövlət qeydiyyatına alınanadək təsisçilər nizamnamə kapitalını tamamilə ödəməyə borcludurlar. Belə bir imperativ şərtin olmasına baxmayaraq, bu qaydanın pozuntusuna görə heç bir sanksiya yox idi və bu gün təklif edilən dəyişiklik həmin məsələni köklü şəkildə həll edir.

Dəyişikliyin ikinci istiqaməti "Tütün və tütün məmulatı haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlara dəyişikliklə əlaqədardır. Bu məqsədlə İnzibati Xətalar Məcəlləsinə yeni maddə əlavə olunur və qeydiyyata alınmadan tütün məmulatının istehsalı ilə məşğul olmağa görə cərimə növündə inzibati tənbeh müəyyən edilir.

Ən nəhayət, dəyişikliyin üçüncü istiqaməti prokurorun inzibati xəta haqqında iş üzrə icraatın başlanması barədə qərar qəbul etmək səlahiyyətlərinin genişləndirilməsini nəzərdə tutur. Daha dəqiq desək, prokurora səlahiyyət verilir ki, məcəllənin layihədə konkret nəzərdə tutulan maddələri üzrə inzibati tənbeh almış şəxs tərəfindən həmin qərar qüvvəyə mindiyi gündən 1 il ərzində xətanın təkrar törədilməsinə görə 184.17-ci maddə üzrə icraat başlatsın.

Hörmətli həmkarlar, göründüyü kimi, bunlar bu günə qədər qanunvericilikdə hiss edilən bir sıra boşluqların

doldurulmasına yönəlmiş kifayət qədər önəmli dəyişikliklərdir. Sizdən bu qanun layihəsini dəstəkləməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Müzakirəyə keçirik. Aydın Hüseynov. Buyurun. Aydın müəllim, birinci oxunuşdur.

**A.Hüseynov.** Çox hörmətli Bəhruz müəllimin də qeyd etdiyi kimi, qanun layihəsindəki maddələr boşluqların doldurulmasına xidmət edir. Doğrudan da, hüquqi şəxslər dövlət reyestrindən keçərkən bütün məlumatlar dövlət reyestrinə təqdim olunmalıdır. Dövlət reyestrində bu məlumatlar vaxtında, geniş, əhatəli şəkildə yığılarsa, bu, sonrakı proseslərdə məhkəmə çəkişmələrinin sayının azalması deməkdir.

Eyni zamanda, nizamnamə kapitalı hər bir məhdud məsuliyyətli cəmiyyət üçün vacib bir göstəricidir. Həmin nizamnamə kapitalının vaxtında ödənilməsi əsas istiqamətlərdən biridir.

Bir məsələni qeyd etmək istərdim. Vacib məsələdir, qanundakı boşluğun doldurulmasına xidmət edir. Burada nizamnamə kapitalının ödənişinin ödənilməli olduğu göstərilir. Bir də var, nizamnamə kapitalı ödənilir, məlumat verilmir. Mən hesab edirəm ki, sonrakı mərhələlərdə bu məlumatların verilməsini məhdud məsuliyyətli cəmiyyətlər yerinə yetirməməlidirlər. Həmin ödəniş vahid elektron baza sistemi vasitəsi ilə avtomatik şəkildə ödənilməlidir. Çünki ödənişlər elektron resurslar üzərindən həyata keçirilir. Ona görə bu məlumat avtomatik şəkildə dövlət reyestrinə salınmalıdır ki, o ödənilib. Ona görə də digər bu kimi proseslərdə həm məhdud məsuliyyətli cəmiyyət üçün, həm də digər subyekt üçün bu məsələlər daha da asanlaşdırılır.

Xanım sədr, mən bir məsələni də xüsusilə qeyd etmək

istəyirəm. Şəxsən Sizə minnətdarlığımı bildirirəm. Sizin ideya müəllifi olduğunuz "Qanunvericilik lüğəti" hər birimizə çatdırıldı. Biz qanunları oxuyarkən bəzən çətinlik çəkirdik. Elə terminlər var idi ki, onu axtarmalıydıq, baxmalıydıq ki, o terminlər, anlayışlar hansı qanunda hansı şəkildə izah olunur. "Qanunvericilik lüğəti"ndə bunlar çox aydın şəkildə toplanıbdır. Burada 3700-ə qədər anlayış və termin var. Ən vacibi də odur ki, buradakı anlayışlar və terminlər hansı qanunda hansı mahiyyəti kəsb edir, mənası nədən ibarətdir, hamısı bu lüğətdə əksini tapıbdır. Sizə və kitabın layihə rəhbərinə, elmi redaktoruna təşəkkür edirik. Qanuna səs verəcəyəm. Bir daha təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Lüğətlə bağlı onu deyim ki, materiallar illər boyu Milli Məclisdə toplanmışdı. Biz, sadəcə, bu lüğəti çap etdik. Neçə illərdir, Milli Məclisdə bu iş gedirdi. Bu, tək VI çağırışın işi deyil.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Qanun layihəsi birinci oxunuşdadır, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasın tarixi haqqında sizə mə-

lumat veriləcək.

Düşünürəm ki, hamınız masanızın üstündə olan planşetlərdən razısınız.

Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

**Ceyhun Məmmədov.** XX əsrin Azərbaycan xalqına bəxş etdiyi ən böyük tarixi şəxsiyyətlərdən biri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevdir. O, həm Sovet dönəmində, həm də müstəqillik illərində Azərbaycana rəhbərlik edərkən xalqımızın milli-mənəvi dəyərlərinin qorunması istiqamətində böyük işlər görmüşdür.

Ümummilli Lider Heydər Əliyevin həyat tarixçəsinə nəzər saldıqda onun Azərbaycan xalqının çoxəsrlik adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasında, tolerantlıq ənənələrinin möhkəmləndirilməsində müstəsna rol oynadığının şahidi oluruq. Məhz Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizdə dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin hüquqi əsaslarla tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması, dini abidələrimizin bərpası istiqamətində sistemli, ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildi.

Məlum olduğu kimi, Ulu Öndər Heydər Əliyev ye hakimiyyətə qayıtdığı dövrdə ölkəmizdə bir çox sahələrdə olduğu kimi, dini fəaliyyət sahəsində də ciddi gərginlik müşahidə olunurdu. O, siyasi hakimiyyətə gəldikdən sonra din sahəsində gərginliyin azaldılması, dini durumun sabitliyinin qorunması, dövlət–din münasibətlərinin tənzimlənməsi və radikal qruplaşmaların fəaliyyətinin qarşısının alınması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirdi. Məhz Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan Respublikasının Konstitusiyasına dini etiqad azadlığı ilə bağlı bir sıra

mühüm müddəalar daxil edildi.

Dini dəyərlərə yüksək hörmət nümayiş etdirən Ulu Öndər Heydər Əliyev mütəmadi olaraq dini bayramlarda ibadət ocaqlarını ziyarət edər, din xadimləri ilə görüşər, çıxışlar edər, dini bayramlar və mərasimlər münasibətilə dini icmalara təbriklər ünvanlayardı. Heydər Əliyevin Azərbaycanda dini fəaliyyət sahəsində böyük xidmətlərindən biri də Sovet məkanında ilk dəfə Azərbaycanda 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsini yaratmasıdır.

Ulu Öndərin başladığı bu böyük və nəcib missiyanı hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva çox böyük uzaqgörənliklə, uğurla davam etdirirlər. Ölkəmizdə dini icmalara böyük diqqət və qayğı göstərilir, yeni məscid, kilsə və sinaqoqlar inşa olunur, dini təhsil müəssisələri yaradılır. Ulu Öndər tərəfindən əsası qoyulan və uğurla davam etdirilən uzaqgörən və müdrik siyasət nəticəsində Azərbaycan bu gün dünyanın multikulturalizm mərkəzlərindən birinə, mədəniyyətlərarası dialoq mövzusunda mötəbər tədbirlərin keçirildiyi məkana çevrilmişdir.

Bu gün Ulu Öndərin adını şərəflə daşıyan Heydər Əliyev Fondu öz fəaliyyətində xeyirxahlıq qayəsini rəhbər tutaraq dini ibadət ocaqlarının təmir, bərpa və inşasına xüsusi əhəmiyyət verir. Fondun xətti ilə son illərdə həm ölkə daxilində, həm də ölkə xaricində bir çox məscid, kilsə, sinaqoq təmir və bərpa olunmuşdur.

**Əliabbas Salahzadə.** Bu gün müzakirəmizə təqdim olunan qanun layihəsi tütün və tütün məmulatları istehsalında səmərəliliyin artırılması və daxili istehsalın stimullaşdırılması, eyni zamanda, yerli xammaldan istifadənin miqyasının artırılması baxımından əhəmiyyətlidir.

Ümumiyyətlə, deyərdim ki, təxminən 2016-cı ilə qədər olan dövr ərzində ölkədə yaş barama, tütün, alkoqollu içkilər və digər məhsulların istehsalında əhəmiyyətli irəliləyiş əldə edilməmişdi. Ümumdünya iqtisadi resessiyasından sonrakı dövrdə ərzaq təhlükəsizliyinin etibarlı təmini, həmçinin daxili istehsalın miqyasının genişləndirilməsi, ölkənin xammal ixracatçısından hazır məhsul ixracatçısına çevrilməsinə yönəlik kifayət qədər geniş həcmli layihələr həyata keçirilməyə başlanmışdır.

Bu gün 2016-cı ildən keçən 8 illik dönəmdə sadalanan sahələrin inkişafında əhəmiyyətli irəliləyiş əldə edilmişdir. Bu baxımdan tütünçülük bu illər ərzində kifayət qədər sürətli inkişaf edən sahələrdəndir. Son illərin statistik rəqəmlərində isə onu da görürük ki, ölkəmizdə tütün xammalının istehsalı bir neçə dəfə artmışdır. Burada tütünçülüyün inkişafı ilə bağlı iki məqamı xüsusi qeyd etmək istəyirəm. Bunlardan birincisi daha məhsuldar sortların kəndliyə paylanılması, onun becərilməsi ilə bağlıdır. Çünki ötən illərin təcrübəsindən bizə məlumdur ki, kəndlilərə paylanan tinglər, əsasən, onlarla müqavilə bağlamış tütün fermentləmə işi ilə məşğul olanlar, yaxud da siqaret istehsalçıları tərəfindən ölkəyə gətirilir, becərilərək kəndlilərə paylanılır. Lakin keyfiyyət yönümlülüyünə üstünlük verilən sortların məhsuldarlığı xeyli aşağı olduğundan kəndlinin qazancı minimum həddə çatır. Yəni hesab edirəm ki, kəndliyə əkin üçün optimal sortlar – keyfiyyətli və məhsuldar sortlar paylanmalıdır. Əks halda, yalnız məhsuldarlığa baxsaq, o zaman istehsalçı şirkətlər, keyfiyyətə baxsaq, onda kəndli zərər çəkəcəkdir. Onu da nəzərə alaq ki, illər uzunu bölgəmizdə əkilən ənənəvi rayonlaşmış sortlar vardır ki, təəssüflər olsun ki, onların bir çoxu aradan çıxmaqdadır.

Tütün istehsalı ilə bağlı toxunmaq istədiyim digər məqam yerli siqaret istehsalının şəbəkəsinin genişləndirilməsi ilə bağlıdır. Bu gün, demək olar ki, bu sahə təbii inhisardadır. Halbuki ölkəmizdə orta həcmli istehsal müəssisələrinin yaradılması mümkündür. Bu baxımdan qanun layihəsində belə müəssisələrin qeydiyyata alınması üçün sərəncamında olan avadanlığın 34 milyon manatdan az dəyərdə olmasının yolverilməzliyi, yəni yalnız bu həcmdə avadanlıq alınması üçün investisiya qoyuluşunun şərt kimi irəli sürülməsi, düşüncəmə görə, bir qədər səhvdir və bu məbləği optimallaşdırmaq yolu ilə aşağı salmaq mümkündür.

Digər məsələ siqaret istehsalı müəssisələrinin böyük şəhərlərdə yerləşməsi ilə bağlıdır. Hesab edirəm ki, bu müəssisələr, əslində, daha çox tütün əkinçiliyinin olduğu bölgələrə yaxın ərazilərdə yerləşməlidir. Çünki son məhsulun ticarət obyektlərinə çatdırılması xammalın istehsal müəssisələrinə çatdırılmasından daha asandır. Digər tərəfdən, məsələnin bu cür həlli işsizliklə bağlı problemin aradan qaldırılmasına da imkan verə bilər.

Daxili bazardan söz düşmüşkən, əsas məsələ bazarın vergi və qiymət siyasəti ilə deyil, təbii, əsas keyfiyyət göstəriciləri amili ilə tənzimlənməsidir. Biz nə qədər xaricdən gələn tütün məmulatları üzərində vergi təzyiqini artırsaq da, keyfiyyətdə geri qaldığımızdan yenə imkanlı şəxslər xaricdə istehsal olunan məhsullara müraciət edəcəklər. Bu baxımdan yaxşı olardı ki, bahalı brendlərin ölkəmizdə keyfiyyətli istehsalına nail olaq, bununla yanaşı, tütünçülükdə istehsal edilən sortları da bu tələbə uyğunlaşdıraq.

# MÜNDƏRİCAT

7 may 2024-cü il ................................................................ 3
Edilməmiş çıxışların mətnləri............................................. 117

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

On beşinci sessiya
Yaz

69-cu cild

7 may 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 7,5. Sifariş 62. Tiraj 150.